

## Abdulla Şahid: “BMT Azərbaycanla əməkdaşlığa böyük önəm verir”

6

## İtaliyalı professor: “Rəsmi Bakı Qarabağdakı yenidənqurmanın baş qəhrəmanıdır”



Tematiche › Russia e Spazio Post-sovietico › Azerbaigian: si parla di pace e ricostruzione del Karabakh

TEMATICHE | RUSSIA E SPAZIO POST-SOVIETICO

**Azerbaigian: si parla di pace e ricostruzione del Karabakh**

di DANIEL POMMIER VINCELLI _ 11/06/2022

*Si parla molto, giustamente, del conflitto in Ucraina. Ma non è stato l'unico confronto armato che ha purtroppo insanguinato lo spazio post sovietico. Quando l'Urss si è dissolto, molti dei suoi Stati successori sono entrati in conflitto – in linea generale – sulla sovranità di aree etnicamente composite. Anzi si può dire che tutte le guerre prodottesi nell'ultimo trentennio nello spazio ex URSS hanno questa dinamica.*

Armenia e Azerbaigian sono stati protagonisti di questo tipo di conflitti. La guerra del Karabakh ha avuto due fasi. La prima nel 1992-1994, che ha visto l'occupazione da parte dell'Armenia di una regione internazionalmente riconosciuta come parte dell'Azerbaigian e di altri sette distretti azerbaigiani, dai quali sono fuggiti circa un milione di profughi interni. La seconda tra il settembre e il novembre del 2020, quando l'Azerbaigian ha scelto di implementare le quattro risoluzioni delle Nazioni Unite del 1993 che chiedevano la fine dell'occupazione, la restaurazione della sovranità azerbaigiana e il ritorno dei profughi. I 44 giorni di guerra si sono conclusi con una netta sconfitta dell'Armenia in un totale rovesciamento dei rapporti di forza con l'Azerbaigian rispetto all'inizio degli anni Novanta. Il 10 novembre 2020 è stata firmata una dichiarazione trilaterale tra Federazione Russa (come mediatore) Armenia e Azerbaigian che prevede la fine dell'occupazione dei territori azerbaigiani da parte dell'Armenia, l'interposizione di una forza di pace russa, il ritorno dei profughi, e lo sviluppo di una nuova connettività tra i due Stati a beneficio di tutta la regione. Come va il processo di pace e cooperazione a un oltre un anno e mezzo dalla stipula dall'accordo tripartito? Molto è stato fatto, molto rimane da fare, tanti sono i problemi e gli ostacoli da superare. Baku fino a questo momento è stata la protagonista della ricostruzione. E' la forza vincitrice, ha disponibilità economiche maggiori, un appeal internazionale senz'altro maggiore rispetto all'Armenia povera, isolata e dipendente dalla Russia. Anzitutto sono state realizzate molte opere infrastrutturali. A tempo di record è stato costruito il primo aeroporto internazionale della regione, vicino la città azerbaigiana di Fizuli, e almeno altri due scali aerei sono in costruzione.

Altrettanto veloce è stato il completamento della strada tra Fizuli e Shusha: un'arteria pensata per un ampio traffico commerciale e turistico in una regione che ha subito 30 anni di

4

# Səs

№ 104 (6545) 14 iyun 2022-ci il. Qiymәti 60 qәpik

# Tarixi Şuşa Bəyannaməsi:

## Əməkdaşlıqdan müttəfiqliyə doğru böyük addım!



3

**RƏCƏB TAYYİB ƏRDOĞAN:** “Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik”

**İLHAM ƏLİYEV:** "Bu gün müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır"



## Saxta qazi olmur, saxta insanlar olur

*QAZİLƏR SİA-YA DANIŞDI*

Xalqımızın 30 illik həsrətinə nəhayət son qoyuldu. Torpaqlarımız düşmən tapdağı altından xilas oldu. Bunların hamısı Azərbaycan Respublikasının Ali Baş Komandanı İlham Əliyevin və müzəffər ordumuzun...

6




## “Yuventus" Poqbanın “işini bitirdi"

16

## “Ermənistanın təxribatları münaqişənin yenidən alovlanmasına səbəb ola bilər”



10

9



## Piknikdən sonra ətrafı niyə çirkləndiririk?

# Tarixi Şuşa Bəyannaməsi:

## Əməkdaşlıqdan müttəfiqliyə doğru böyük addım!




15 iyun 2021-ci il - Türkiyə-Azərbaycan, ”Bir millət, iki dövlət”i rəsmiləşdirən, ən əsası isə, tariximizdə ilk dəfə olaraq iki güclü liderlərin - Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin işğaldan azad olunmuş Qarabağımızın baş tacı olan Şuşada Müttəfiqlik haqqında Bəyannamə imzalanmasından iki il ötür. Bu, real faktordur ki, tarixi sənədlərin imzalandığı tarix və məkan hər zaman böyük əhəmiyyət kəsb edir. Çünki illər sonra gələcək nəsillər bu tarixi və məkanı tarix kitablarından oxuyarkən məsələnin mahiyyətini və əhəmiyyətini daha dərindən dərk edirlər. Bu mənada, Şuşa Bəyannaməsinin siyasi və tarixi əhəmiyyətini izah edən məsələ sənədin imzalanma tarixi, yəni 15 iyun-Milli Qurtuluş günüdürsə, ikincisi onun Azərbaycanın mədəniyyət paytaxtı Şuşada imzalanmasıdır. Əgər 29 il öncə 15 iyun tarixində Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ümummilli lider Heydər Əliyev aldısa, illər sonra Qars müqaviləsinin imzalanmasından iki yüz il sonra eyni gündə Azərbaycanın torpaqlarını düşmən tapdağından azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa Bəyannaməsini imzaladı. Bəyannamənin əhəmiyyəti ilə bağlı mətbuata bəyanatında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, ”Türkiyə ilə Azərbaycan arasındakı bu bəyannamə bir sıra məsələləri əhatə edir. Gələcəklə bağlı addımları atarkən, artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük”. Bəli, bu qətiyyətin və birliyin təcəssümünü elə bəyannamənin mətni ilə tanış olarkən aydın görmək mümkündür: ”Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur”.

### PREZİDENT İLHAM ƏLİYEV: ”BU GÜN QƏDİM ŞƏHƏRİMİZ OLAN ŞUŞADAN VERİLƏN AÇIQLAMALAR BÜTÜN DÜNYAYA SƏS SALACAQ, BUNUN BÖYÜK ƏKS-SƏDASI OLACAQ”

”Biz bu gün Şuşada görüşürük. Bu gün bütün Azərbaycan xalqının, türk xalqının gözü buradadır, dünyanın gözü buradadır. Azərbaycan bu səfər səbirsizliklə gözlənilirdi və böyük maraq doğurur”. Bu fikirləri Prezident İlham Əliyev Şuşada mətbuata bəyanatında deyib: ”Bu gün qədim şəhərimiz olan Şuşadan verilən açıqlamalar bütün dünyaya səs salacaq, bunun böyük əks-sədası olacaq. Bu səfərin tarixi əhəmiyyəti bundan sonra uzun illər ərzində dillərdə olacaqdır. Şuşa keçən il noyabrın 8-də işğaldan azad edildi. Şuşa şəhərini azad etmək böyük qəhrəmanlıq tələb edirdi. Şuşaya gələn hər bir insan sıldırım qayaları görərkən, görür ki, bu alınmaz qala sayılan şəhəri azad etmək böyük qəhrəmanlıq, peşəkarlı, şücaət tələb edirdi”. Bu gün Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqlarının ölkələrimizin birliyini nümayiş etdirdiyini vurğulayan Prezident İlham Əliyev bildirib ki, İkinci Qarabağ müharibəsi başlanan ilk gündən, ilk saatlardan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana birmənalı, qəti və açıq dəstək ifadə edib. Müharibənin ilk saatlarından Türkiyə Prezidenti bildirdi ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayandırdı.

### TARİXİ ŞUŞA BƏYANNAMƏSİ - TÜRKİYƏ-AZƏRBAYCAN QARDAŞLIĞININ GÖSTƏRİCİSİ

Bir sözlə, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması mühüm tarixi hadisə kimi yaddaşlarımıza həkk olundu. Bəli, Müttəfiqlik haqqında Bəyannamə təqdimatı hər şeyi deyir. Bu tarixi sənədin imzalanmasından sonra bütövləşmişik, bir dövlətə çevrilmişik. Şuşa Bəyannaməsi qardaşlığımızın rəmzidir. Şuşa Bəyannaməsi Türkiyə ilə Azərbaycanın birgə maraqlarının qorunması üçün hər iki ölkənin bütün imkanlarından istifadə etməyə imkan verən rəsmi sənəddir. İstər Türkiyəyə qarşı, istərsə də Azərbaycana qarşı üçüncü ölkə və yaxud ölkələr tərəfindən təhdidlər və yaxud birbaşa hücum olarsa, iki ölkənin bütün imkanları səfərbər ediləcək və işğalçıya qarşı birgə mübarizə aparacaqlar. Müttəfiqlik haqqında imzalanmış bu Bəyannamə iki qardaş ölkə arasındakı əlaqələri ən yüksək səviyyəyə qaldırır və Bəyannamədə göstərilən bütün müddəalar keyfiyyətcə daha yüksək səviyyəli əməkdaşlığın təminatıdır. İmzalanmış Bəyannamə tarixə əsaslanır və möhkəm təməllərə malikdir. Bəyannamədə xalqlarımızın böyük Liderləri, Öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapıb. XX əsrin əvvəllərində Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk demişdi ki, ”Azərbaycanın kədəri-kədərimiz, sevinci-sevincimizdir”. XX əsrin sonlarında isə Ulu Öndər Heydər Əliyev demişdi ki, ”Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir” XXI əsrin əvvəllərində erməni işğalından azad edilmiş Şuşada müttəfiqlik Bəyannaməsinin imzalanması bu cür yanaşmanın və qardaşlığın əbədiləşdirilməsinin təcəssümüdür. Tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək strateji tərəfdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Dövlətlərimiz arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmaqda, bir sıra sahələr üzrə isə keyfiyyətcə yeni müstəviyə keçməkdədir. ”Bu gün tarixi gündür. Türkiyə Prezidentini Qarabağ torpağında salamlayırıq. Əziz Qardaşım Azərbaycanda dəfələrlə olub. Ancaq ilk dəfə Qarabağ torpağında, Şuşada biz bir yerdəyik. Bu səfərin tarixi əhəmiyyəti var”. Bu fikri Prezident İlham Əliyev Şuşada mətbuata bəyanatı zamanı söyləmişdi və bildirmişdi ki, müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır: ”Bəyannamənin adı öz-özlüyündə hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatıdır”.

### PREZİDENT RƏCƏB TAYYİB ƏRDOĞAN: ”ŞUŞA BƏYANNAMƏSİ İLƏ ƏLAQƏLƏRİMİZİN YENİ DÖVRDƏKİ YOL XƏRİTƏSİNİ MÜƏYYƏNLƏŞDİRDİK”

”Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni dövrdəki yol xəritəsini müəyyənləşdirdik”. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 15-də Şuşada mətbuata bəyanatında bildirmişdir. Şuşa Bəyannaməsinin imzalanmasının tarixi əhəmiyyətini xüsusi vurğulayan Prezident Ərdoğan vurğulamışdır ki, Türkiyə ilə Azərbaycan arasındakı bu bəyannamə bir sıra məsələləri əhatə edir: ”Gələcəklə bağlı addımları atarkən, artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük”. Şuşa Bəyannaməsinin məhz Azərbaycan xalqının Qurtuluş günü - 15 iyun tarixinə və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin xüsusi rəmzi mənası var. Təsadüfi deyil ki, Şuşada Türkiyə lideri ilə Bəyannamə imzalayarkən Azərbaycan Prezidenti hər kəsin yadına Qars müqaviləsini saldı. O qeyd etdi ki, tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb: ”Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır”.

Ardı Səh. 3

# Tarixi Şuşa Bəyannaməsi:

## Əməkdaşlıqdan müttəfiqliyə doğru böyük addım!

Əvvəli Səh. 2

Təbii ki, Prezident İlham Əliyevin Qars müqaviləsinə və 100 il bundan əvvəl baş verənlərə istinad etməsi təsadüfi deyil. Çünki 100 il bundan əvvəl baş tutan proseslərə oxşar hallar, indi də təkrarlanmaqdadır. Sadəcə bir fərq ilə. Əgər o zaman hadisələrin nəticəsi Ermənistanın və onun havadarlarının xeyirinə başa çatmışdısa, bu gün Cənubi Qafqazda yaranmış yeni reallıq Azərbaycan dövlətinin və xalqının birbaşa qalibiyyəti deməkdir. Ölkəmizin başçısının apardığı uzaqgörən siyasət nəticəsində xalqımız düz 100 il sonra tarixi ədaləti bərpa etdi. Şuşa Bəyannaməsinin önəmi həm də ondan ibarətdir ki, bu sənəd heç bir ölkəyə qarşı deyil, əksinə regionda daimi sülhün, sabitliyin bərqərar olmasına yönəldilib. Sənəddə də göstərildiyi kimi, yalnız hər iki ölkəyə qarşı xaricdən müdaxilələr olacağı təqdirdə birgə əməliyyatlar keçiriləcək, bir-birinə hər cür dəstək verəcəklər. Bu, həm Türkiyənin, həm də Azərbaycanın maraqlarına uyğundur. Şuşa Bəyannaməsinin imzalanmasından keçən müddət ərzində Cənubi Qafqazda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi üçün kifayət qədər işlər görülüb. İqtisadi və nəqliyyat əlaqələrinin bərpası ilə bağlı meqalayihələrə start verilib. Region dövlətləri arasında münasibətlərin normallaşdırılması istiqamətində Türkiyə və Azərbaycanın birgə təşəbbüsləri deyilənlərə ən parlaq nümunədir. Qarabağda Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyətə başlaması da bu qəbildəndir. Rusiyanın da bu prosesə daxil edilməsi isə regionda sülhün bərqərar olunmasının təsir mexanizmini artırmağa hesablanıb.

Bəli, Şuşa Bəyannaməsinin sülhyönümlü olması mübaliğəsizdir. İki qardaş ölkə arasında müttəfiqliyin bu sənəd vasitəsilə bir daha təsdiqlənməsi qonşularının da xeyrinədir. Çünki nə Türkiyə, nə də Azərbaycan təcavüzkardır, hər iki ölkə BMT tərəfindən tanınmış və bütün beynəlxalq sənədlərdə təsdiq olunmuş sərhədlərinə sahib olmaq və qonşularının da ərazi bütövlüyünə hörmətlə yanaşmaq, mehriban qonşuluq şəraitində yaşamaq istəyindədir. 30 il idi ki, beynəlxalq güclər Cənubi Qafqaz regionunu özlərinin haqq-hesab poliqonuna çevirmişdilər. Məhz Türkiyə ilə Azərbaycanın birgə səyi ilə regionda faşizmin kökü kəsildi, uzun illər erməniləri də normal yaşayışdan məhrum etmiş rejim tarixin arxivinə atıldı. Sülhə məcburetmə nümunəsi Azərbaycan və Ermənistan arasında 44 günlük müharibədə özünü tam olaraq təsdiq etdi. Azərbaycan Ermənistandakı faşist rejimi məğlub etmədi, həm də regiona uzunmüddətli sülh gətirdi.

### TÜRKİYƏ PREZİDENTİ: "ŞUŞA BƏYANNAMƏSİ İLƏ ƏLAQƏLƏRİMİZDƏ YENİ BİR DÖNƏM BAŞLATDIQ"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Türkiyə və Azərbaycan arasında imzalanmış Şuşa Bəyannaməsi ilə iki ölkə arasındakı əlaqələrdə yeni dönəm başlayıb: "Qarabağa yenidən həyat verməklə yanaşı, azərbaycanlı qardaşlarımızın bir daha bu cür fəlakətlər yaşamaması üçün bir millət, iki dövlət ruhuna uyğun şəkildə tədbirlərimizi alırıq. Qardaşım Əliyevlə birlikdə imzaladığımız və dünyaya elan etdiyimiz Şuşa Bəyannaməsi ilə əlaqələrimizdə yeni bir dönəm başlatdıq. Bu bəyannamə çərçivəsində bir çox anlaşmanı çox yaxın zamanda Türkiyə və Azərbaycan olaraq imza altına alacaq, beləcə qardaşlığımızın hüquqi təməlini daha da gücləndirəcəyik. Şuşa Baş Konsulluğumuzun ən qısa müddətdə açılmasından Zəngəzur dəhlizinin bir an öncə işləməsinə qədər gündəmimizdəki hər bir başlığı qərarlılıqla və sürətlə həyata keçirəcəyik. Önümüzdəki aylarda ölkəmizdə gerçəkləşdirəcəyimiz Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında bu xüsuslarla əlaqəli konkret addımların çoxunu atmağı planlaşdırırıq".



### ŞUŞA BƏYANNAMƏSİ ERMƏNİSTANA VƏ ONUN HAVADARLARINA BİR MESAJ İDİ

Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyəsi ümumilikdə regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. 44 günlük Vətən müharibəsi zamanı dünya bir daha bunun şahidi oldu. Müharibənin ilk günlərindən qardaş Türkiyə Azərbaycana siyasi-mənəvi dəstək verdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan açıq və birmənalı bəyanatlar səsləndirərək, bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu bildirdi. Bu, gücümüzə güc qatdı, Qarabağ Zəfərində mühüm rol oynadı. Xüsusən, Rəcəb Tayyib Ərdoğanın Bakıda Azadlıq meydanında keçirilən Zəfər paradında Prezident İlham Əliyevlə yan-yana dayanması ölkələrimizin birliyini, xalqlarımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Və Azərbaycan ilə Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında imzalanan tarixi Şuşa Bəyannaməsi bütün dünyaya bir mesaj olaraq Türkiyə-Azərbaycan, "sevinci və kədəri bir" olan, "bir millət, iki dövlət"in qardaşlıq birliyinin gücünü göstərdi və artıq reallıqla barışmaq və gələcəyə baxmaq lazımdır.

### ŞUŞA BƏYANNAMƏSİ BÜTÜN DÜNYANIN BARIŞMALI OLDUĞU TARİXİ GERÇƏKLİKDİR

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir. Hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən saziş Bakı və Ankaranın başçılığı altında yeni regional geosiyasi konfiqurasiyanın qurulmasının başlanğıcıdır. Bu, regionda 200 ilə yaxın davam edən geosiyasi konfiqurasiyaların dağıdılması və bundan sonra Azərbaycan-Türkiyə tandeminin rəhbərliyi altında davam edəcək yeni regional düzənin başlanğıcı deməkdir. Çünki bu gün Azərbaycanla Türkiyə arasındakı münasibətlərin dünyada analoqu yoxdur. 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana qətiyyətli siyasi və mənəvi dəstəyi və qazanılan zəfər regionda yeni reallıqlar yaratdı. Bütün dünya bir daha Azərbaycan-Türkiyə qardaşlığının təntənəsinin şahidi oldu. Bu baxımdan, Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının və birliyinin yeni təsdiqi sayılan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi hər iki ölkə ilə yanaşı, region və dünya üçün də son dərəcə böyük əhəmiyyət kəsb edir. Həmçinin, imzalanmış Müttəfiqlik Bəyannaməsi iki ölkə arasında münasibətlərin ən yüksək zirvəyə çatmasının göstəricisidir. Eyni zamanda, Şuşa Bəyannaməsi Ermənistana və onun havadarlarına da mesajdır. Türk dünyasının iqtisadi, siyasi və mədəni birliyi bu bəyannamə ilə daha da sarsılmaz olacaq. Türkiyə və Azərbaycan arasındakı imzalanmış Şuşa Bəyannaməsi ilə təkcə iki qardaş ölkəni deyil, bütün türk dünyasını, eləcə də Şərqlə Qərbi birləşdirəcək Zəngəzur dəhlizinin açılması qətiləşdi və bu proses sürətləndiriləcək. Müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır. Regionumuz bu iki türk dövlətinin təşəbbüsləri ilə inkişaf edəcək. Bu isə o deməkdir ki, gələcəkdə bölgədə süni münaqişələrin yaradılması və ya alovlandırılması da daha mümkün olmayacaq. Şuşa Bəyannaməsi bölgədə sülh, sabitlik və firavanlıq üçün güclü bir çağırışdır. Və Şuşa Bəyannaməsi hər şeydən öncə iki qardaş ölkə arasında münasibətlərin gələcəyini müəyyən edən yol xəritəsi kimi də tarixə düşəcək. Azərbaycan Prezidenti cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan xalqlarımızın milli maraqlarını müdafiə edərək, onun mənafelərinin təmin olunması istiqamətində müstəqil xarici siyasət yürüdən iki böyük liderdir. Azərbaycanla Türkiyənin dünyada gedən proseslər haqqında mövqeləri üst-üstə düşür, bundan sonra da bu iki liderin rəhbərliyi altında iki dövlət BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla beynəlxalq və regional təşkilatlar çərçivəsində bir-birilərinə qarşılıqlı dəstək verəcəklər. Bu Bəyannamə Azərbaycan və Türkiyə dövlətləri arasında bütün sahələrdə inteqrasiyanın nümunəsidir. Ən əsası, bu, Ermənistanda revanşizmin və Qars müqaviləsinin ləğvi barədə iddiaların səsləndirildiyi, bəzi dövlətlərin regionda yenidən qarışıqlıq yaratmaq istədikləri bir zamanda Şuşa Bəyannaməsinin imzalanması düşmənlərimizə göz dağı verməklə yanaşı, həm də Azərbaycanın gücünün, qüdrətinin nə qədər böyük olduğunu bir daha göstərdi.

### TÜRKİYƏ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞAN: "BİZİM GÜCÜMÜZ AZƏRBAYCANIN GÜCÜDÜR"

"Pandemiyaya baxmayaraq, kənd təsərrüfatından enerjiyə, nəqliyyatdan turizmə, müdafiədən təhsil və mədəniyyətə qədər hər sahədə əməkdaşlığımızı inkişaf etdirmək üçün birgə səylərimizi qətiyyətlə davam etdiririk. Bütün bunlardan başqa, müdafiə sənayesi sahəsində əlaqələrimizi texnologiya transferi və birgə istehsal layihələri ilə daha da gücləndiririk". Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 15-də Şuşada mətbuata bəyanatında söyləyib. İkinci Qarabağ müharibəsində pilotsuz uçuş aparatlarının önəmini xüsusi vurğulayan Türkiyə Prezidenti deyib: "Müdafiə sənayesi sahəsində əlaqələrimiz bundan sonra daha fərqli şəkildə inkişaf edəcək. Bu fərqli inkişafla yanaşı, Azərbaycan bir bazar deyil, eyni zamanda, bu prosesdə istehsal mərkəzi olma imkanı da əldə edəcək. Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür". Bəli, bu gün Türkiyə-Azərbaycan, "Bir millət, iki dövlət"i rəsmiləşdirən Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi - Azərbaycan-Türkiyə "Bir millət, iki dövlətdir!". Və Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında Şuşa Bəyannaməsini imzalamaqla hər zaman Azərbaycanın yanında olacağını rəsmən elan etdilər. Bu, tarixi hadisədir və xalqlarımızı qürurlandırır, gücümüzü artırır, birliyimizi möhkəmləndirir və dövlətlərimizi daha böyük uğura aparır. Bir sözlə, tarixi Şuşa Bəyannaməsi iki qardaş ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinin, eləcə də ortaq maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərin qarşılıqlı şəkildə əlaqələndirilməsinin məntiqi nəticəsi olaraq ölkələrimizin regional və beynəlxalq rolunu, çəkisini daha da artıracaq. Dövlət başçımızın dediyi kimi: "Bu gün müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı öz-özlüyündə hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatıdır".

***RƏFİQƏ KAMALQIZI***

# “Azərbaycan Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verir”

*Azərbaycanın Baş naziri Əli Əsədov Slovakiya Milli Şurasının sədri Boris Kollar ilə görüşüb*

**Baş nazir Əli Əsədov dünən Slovakiya Respublikası Milli Şurasının sədri Boris Kollar ilə görüşüb. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Slovakiya münasibətlərinin müxtəlif istiqamətlərdə inkişaf etdiyi məmnunluqla vurğulanıb. Slovakiya Milli Şurasının sədrinin ölkəmizə səfərinin ikitərəfli əməkdaşlığın dərinləşməsinə təkan verəcəyinə əminlik ifadə olunub.**



Eyni zamanda, B.Kolların rəhbərlik etdiyi parlament nümayəndə heyətinin Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinə səfərinin əhəmiyyəti vurğulanıb. Bu kontekstdə işğaldan azad olunmuş ərazilərin, kənd və şəhərlərimizin bərpası və yenidən qurulması istiqamətində görülən işlərdən bəhs olunub.

İki ölkə arasında investisiya sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğu diqqətə çatdırılıb. Bu baxımdan Ələt Azad İqtisadi Zonasının önəmi qeyd edilib, Slovakiya şirkətlərinin xarici investorlar üçün burada yaradılmış əlverişli imkanlardan faydalana biləcəyi bildirilib.

Söhbət zamanı enerji təhlükəsizliyi ilə bağlı müzakirələr aparılıb. Azərbaycanın zəngin enerji ehtiyatları və infrastrukturu ilə Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verdiyi bildirilib. Bu baxımdan Cənub Qaz Dəhlizinin önəmi xüsusi vurğulanıb. Görüşdə, həmçinin iki ölkə arasında siyasi, iqtisadi-ticari, sərmayə qoyuluşu, enerji, humanitar və bir çox digər sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

## İtaliyalı professor:

# “Rəsmi Bakı Qarabağdakı yenidənqurmanın baş qəhrəmanıdır”

**Rəsmi Bakı Qarabağdakı yenidənqurmanın baş qəhrəmanıdır. AZƏRTAC xəbər verir ki, bu fikirlər Roma Sapienza Universitetinin tədqiqatçısı, professor Daniel Pommier Vinçellinin ”Geopolitica.info” analitik-informasiya portalında dərc olunan məqaləsində yer alıb.**

İtaliyalı professor ”Azərbaycan: sülh və Qarabağın yenidən qurulması haqqında söhbət” adlı məqaləsində birinci Qarabağ müharibəsində beynəlxalq səviyyədə Azərbaycanın tərkib hissəsi kimi tanınan ərazilərin və digər yeddi rayonun Ermənistan tərəfindən işğalı nəticəsində bir milyona yaxın azərbaycanlının qaçqın düşdüyü qeyd olunub. Lakin 2020-ci ilin sentyabr-noyabr aylarında Azərbaycan BMT-nin işğala son qoymağa çağıran, öz suverenliyinin bərpasını və qaçqınların geri qaytarılmasını tələb edən 1993-cü il tarixli dörd qətnaməsini yerinə yetirməyi seçdi. 44 günlük müharibə 1990-cı illərin əvvəlləri ilə müqayisədə qüvvələr balansının Azərbaycanın xeyrinə tamamilə dəyişməsi sayəsində Ermənistanın aşkar məğlubiyyəti ilə başa çatdı.




”2020-ci ildə imzalanan 10 noyabr tarixli üçtərəfli Bəyanat isə Ermənistan və Azərbaycan arasında hərbi əməliyyatlara son qoydu. Üçtərəfli Bəyanatın imzalanmasından ilyarımdan çox vaxt keçəndən sonra sülh və əməkdaşlıq prosesi necə gedir? Çox iş görülüb, hələ görüləsi çox iş var və aradan qaldırılmalı çoxlu problemlər var. Rəsmi Bakı indiyə qədər bölgədə yenidənqurmanın baş qəhrəmanı olub. Azərbaycan qalib tərəfdir, daha çox maliyyə resurslarına malikdir. Azərbaycanın beynəlxalq cəlbediciliyi şübhəsiz ki, təcrid olunmuş və kasıb Ermənistandan daha böyükdür. İlk növbədə, bölgədə bir çox infrastruktur işləri həyata keçirilib. Rekord müddətdə Azərbaycanın Füzuli şəhəri yaxınlığında regionun ilk beynəlxalq hava limanı tikilib və ən azı daha iki aeroportun inşası davam edir. Füzuli ilə Şuşa şəhəri arasındakı avtomobil yolunun tikintisi də eyni sürətlə başa çatdırılıb. Bu yol 30 illik yoxsulluq və təcriddən əziyyət çəkən bölgədə böyük ticarət və turist axını üçün nəzərdə tutulmuş arteriya rolunu oynayacaq. Bundan başqa, Şuşa şəhəri yenidən qurulur. XVIII əsr qala divarları ilə əhatə olunmuş bu dağlıq şəhər həmişə yazıçılar, rəssamlar və ziyalıların doğulduğu və formalaşdığı yer kimi Azərbaycanın mədəniyyət paytaxtı hesab edilib. Erməni işğalı nəticəsində xarabalığa çevrilmiş Şuşa hazırda infrastruktur, yaşayış, turizm və mədəniyyət sahələrinə böyük sərmayələr qoyularaq yenidən qurulur. Lakin bütün yenidənqurma və birləşdirici layihələr, məsələn, Azərbaycan, Ermənistan və Türkiyə arasında qurulacaq Zəngəzur dəhlizinin inkişafı bölgədə ən böyük təhlükə - piyada əleyhinə minalar zərərsizləşdirilmədən həyata keçirilə bilməz. Azad edilmiş ərazilərin hər qarışı işğal dövründə beynəlxalq konvensiyalarla qadağan edilmiş öldürücü qurğularla örtülüb. Azərbaycan tərəfindən həmin ərazilərdəki minalar hər gün zərərsizləşdirilir. Lakin piyada əleyhinə minaların sayı o qədər çoxdur ki, əməliyyat illərlə davam edə bilər”, - deyə məqalədə bildirilir.

Müəllif yazısında qeyd edir: ”Çətinliklərə baxmayaraq, tərəflər arasında sülh prosesi irəliləyir və Avropa İttifaqı bu məsələdə fəal rol oynayır. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə artıq bir neçə dəfə Azərbaycan Prezidenti İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyanın görüşü keçirilib. Danışıqlar masasında çoxlu məsələlər var: dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası, iki ölkə arasında nəqliyyat və kommunikasiya yollarının açılması, sülh sazişinin imzalanması. Artıq iki tərəfin müvafiq komissiyalarının üzərində işlədiyi bu məsələlər ölkələr arasında münasibətlərin normallaşmasına və regionun sabitləşməsinə gətirib çıxara bilər. İyul-avqust aylarına qədər Avropa İttifaqının təklif etdiyi formatda iki ölkənin rəhbərinin yenidən görüşü olacaq. Həmin görüşdə sülh danışıqlarının ilkin qiymətləndirilməsi ilə bağlı yekun qiymət verə biləcəyik”.

ANALİTİK

# Ermənistan iqtidarı və müxalifəti ölkəni birgə şəkildə ölümə tərəf sürükləyir

*Hakimiyyətin imitasiyası və spekulyasiyası vəziyyəti gərginləşdirir*

Ötən həftə və eləcə də uzun müddətdən sonra Ermənistanın hakim ”Vətəndaş sazişi” partiyasının rəhbərliyi müxalifətin fəallaşmasına münasibətini bildirdi. Baş nazir Nikol Paşinyanın ən yaxın silahdaşlarından biri, xarici işlər naziri Ararat Mirzoyan millətçilərin 10 noyabr üçtərəfli bəyanatın dondurulması tələblərini dolayısı ilə axmaqlıq və ya səfehlik adlandırıb. Ancaq erməni hökumətinin gah bu, gah da tamamilə əks şəkildə bəyanatlar səsləndirməsi açıq-aşkar imitasiya, yaxud spekulyasiya cəhdlərini daha çox qabardır.

### Mirzoyanın sözlərini təsdiqləyən cavab da məhz sabiqlərin birindən - keçmiş müdafiə nazirinin müavini Artak Zakaryanın dilindən çıxıb

Lakin qayıdaq Mirzoyanın fikirlərinə və ona verilən cavablardan birinə. Beləliklə, millətçi və revanşistlərin bir çox üzvləri Ermənistan XİN rəhbərinə cavab vermək istəyiblər, lakin Mirzoyanın sözlərini təsdiqləyən cavab da məhz sabiqlərin birindən - keçmiş müdafiə nazirinin müavini Artak Zakaryanın dilindən çıxıb. Zakaryan deyib ki, Ermənistanda siyasi rejimin dəyişdirilməsi sülh prosesinin sürətləndirilməsinə kömək etməyəcək, əksinə müharibə ritorikasını daha çox üzə çıxaracaq. Yəni sözügedən bəyanata əməl olunmazsa Ermənistanın işi necə deyərlər, ”fırıq” olacaq. Zakaryan bugünkü Ermənistanda real siyasətin kimlər tərəfindən formalaşdırılması kimlər tərəfindən isə imitasiya olunması ilə bağlı məsələlərin suallar doğurduğunu deyib.

### Əldə edilmiş razılaşmaların qəsdən yerinə yetirilməməsi və ya gecikdirilməsi isə məhz bu təzahürlərin qaldığını göstərir

Ancaq erməni siyasi ictimaiyyəti bu barədə suallar verəmkdənsə yaxşı olardı ki, əsl gerçəkliyi qəbul etsinlər. Məsələ ondadır ki, 44 günlük müharibədən sonra münaqişə təzahürlərinin aradan qaldırılması istiqamətindəki uzunmüddətli danışıqlar prosesi Ermənistanda yürüdülən yanlış siyasətinin üzərindir. Əldə edilmiş razılaşmaların qəsdən yerinə yetirilməməsi və ya gecikdirilməsi isə məhz bu təzahürlərin qaldığını göstərir.



O da bəllidir ki, 20 ildən artıqdır Ermənistanda heç kim BMT-nin Azərbaycan ərazisinin işğalını pisləyən qətnamələrini ciddi qəbul etməyib. Sadə dillə desək, Ermənistan üzərinə götürdüyü öhdəlikləri ciddi şəkildə yerinə yetirməyi bundan sonra da uzadacaqsa məsuliyyəti də onun üzərində qalacaq.

### Bu, həm də Ermənistanın strateji müttəfiqi olan Rusiyanın nüfuzuna təhqir kimi olacaq

Bu gün həm Paşinyan rejimi, həm də revanşistlər eyni nöqtəyə zərbə vururlar - Paşinyan iqtidarı sülh müqaviləsinin imzalanması prosesini uzadır, millətçilər isə sözün əsl mənasında ölkəni yeni müharibəyə doğru sürükləyirlər. Əgər Paşinyan müxalifətin tələbləri qarşısında aciz qalacaqsa, sülh şərtlərindən imtina edəcəksə və ya spekulyasiya etmək cəhdlərini davam etdirəcəksə bu yalnız İrəvanın nüfuzuna zərbə vurmayacaq, həm də Ermənistanın strateji müttəfiqi olan Rusiyanın nüfuzuna təhqir kimi olacaq. Bir sözlə, qisasçılıq və spekulyasiya Ermənistanı siyasi məhvə və xəritədən silinməyə tərəf sürətlə sürükləməkdədir.

***Rövşən RƏSULOV***

# Ermənilər özləri indi özlərinə düşmən kəsiliblər

***Ermənistanın daxilində müşahidə olunanlar təsdiq edir ki, ermənilər özləri indi özlərinə düşmən kəsiliblər. Əgər bu ölkədə istər iqtidar, istərsə də müxalifət həqiqətən də Ermənistanın yaxşılığını düşünürlərsə, sadəcə olaraq öz ambisiyalarını bir kənara qoymalıdırlar. Hansısa ölkənin taleyini düşünənlər xilas olmaq naminə birgə proqramlar hazırlamaq üçün səfərbər olmalıdırlar və bu proqramlar isə qonşularla normal münasibətlər olduğu halda reallaşa bilər, qarşıdurmalar, ambisiyalar olduğu zaman yox.***



İstənilən bir ölkə daxilində yalnız düşmən qüvvələr varsa, onlar yalnız bir-birlərinə qənim kəsiliblərsə, ölkənin taleyi düşünülmürsə, nəinki inkişafdan söhbət gedə bilməz, heç ölkənin təhlükəsizliyini belə təsəvvür etmək mümkün deyil. Məsələ burasındadır ki, Ermənistanda iki ilə yaxındır ki, vəziyyət məhz belədir və ermənilər özləri elə özlərinin əleyhinədir, onlara düşmən axtarmaq lazım deyil. Düşmən onların öz içlərindədir və bu düşmən elə daxildən bu ölkəni parçalayır, daha da ağır duruma sürükləyir, Ermənistanı məhvə aparır. İndi Ermənistanın daxilində vətəndaş müharibəsinin başlaması üçün kiçik bir qığılcım da kifayətdir.

Əgər 44 günlük müharibə dönəmində ağır itgilərini müşahidə edən, bunun ardınca ölkəsinin məğlubiyyətini, kapitulyasiya sənədinə imza atmasını seyr edən Ermənistan müxalifətinin mövcud hakimiyyətə, Paşinyanın komandasına o zaman dişi batmadısa, deməli indi ortalığı qarışdırması çox mənasız görünür və bu ölkəyə daha böyük fəlakətlər vəd edir. Əvvəlki hakimiyyətlərin tərəfdarları müharibədəki acı, ağır və biabırçı məğlubiyyəti gördükləri halda, indi gözləri açılıb, yoxsa hələ indi uduzduqlarını anlayıblar? Əlbəttə ki, onlar elə zamanında başa düşmüşdülər ölkələrinin məğlub olduğunu və Azərbaycanın qarşısında diz çökdüklərini də elə o zaman belə bilirdilər. Elə isə indi ortalığı qarışdırmaq nəyə lazımdır və nəyə hesablanıb? Belə bir vəziyyətdə hansı üzlə deyə bilərlər ki, onlar ölkələrinin gələcəyi naminə mübarizə aparır, meydanlara çıxır, səslərini ucaldırlar? İndi sıravi erməni belə bilir ki, aparılan mübarizə ölkə naminə deyil, post uğrundadır, ambisiyaların təzahürüdür və bu hal ölkələri üçün ən dəhşətli sonluq vəd edir.

Bu gün Köçəryan, Sarkisyan və onların komandaları Paşinyanın hər addımını hədəfə alıb, onun hər hərəkətini səhv adlandırır və hətta onlardan təşkil olunan erməni müxalifəti 2020-ci il noyabrın 9-da erməni baş nazirin imzaladığı bəyanatı ləğv etmək çağırışı edir. Ermənistan müxalifəti həyasızlıqla vəd edir ki, hakimiyyətə gələcəyi təqdirdə bunu edəcək və işğaldan azad etdiyimiz əraziləri bir də işğal edəcəklərini də hətta utanmadan vəd edir. Maraqlıdır, onlar bunu necə edəcəklər? Hansı güclə, hansı arsenalla, hansı potensialla edəcəklərini vəd edirlər? Bu barədə bir söz belə demirlər axı. Bu güc də, arsenal da, potensial da Ermənistanda yoxdur və bu ölkə güclə ayaq üstündə dayanırsa, iddiaları nəyə hesablana bilər? Bəllidir ki, onlar sadəcə, cəmiyyətdəki tərəfdarlarını radikal addımlar atmağa sövq edirlər. Onlar Ermənistan vətəndaşlarını sövq edirlər ki, dağıdıcı addımlar atsınlar və bu məqamda da özləri üçün münbit şərait tapıb hakimiyyəti ələ keçirsindlər. Bu isə xalqa, erməni xalqına düşmənçilikdən başqa bir şey deyil. Ona görə ki, onlar ələ keçirmək istədikləri hakimiyyət naminə xalqı oyuna, hətta qırğına belə sürükləyirlər və bu yalnız düşmənçilik kimi xarakterizə edilə bilər. Təbii ki, hərhansı xalqın daxilində sadəlövhlər çox çox ola bilməz və könüllü şəkildə intihara bənzər addımlar atmaq ağılsızlıqdır. Təsadüfi deyil ki, erməni müxalifəti Paşinyanın devrilməsi üçün lazım olan kütləni öz hərəkətləri və ambisiyaları üçün toplaya bilmir. İndi ermənilər belə anlayırlar ki, hakimiyyəti tənqid etmək başqa məsələdir, kimlərinsə oyunlarında alət olmaq daha başqa məsələdir və bu onları məhvə sürükləyir, düşmən də elə onların özləri hesab olunmalıdır.

Əlbəttə ki, Ermənistan hakimiyyətinin də erməni xalqı qarşısında öyünməyə haqqı yoxdur və hələ də bu hakimiyyət öz ölkəsinin vətəndaşlarını ağ günə çıxara bilməyib. Nikol Paşinyan hakimiyyətə gəlmək üçün çox yağlı vədlər verməsinə baxmayaraq, erməni xalqı hələ də səfalət içərisində inləyir. Üstəlik, Paşinyanın yanlış addımları, danışıqlar prosesinə etinasızlığı, bu prosesə mane olmaq cəhdləri və bir çox düşünülməmiş addımları müharibəni labüd etdi, hansıki bu, onların istənilən sahədə böyük itgilərinə, çoxlu sayda hərbçisinin məhvinə səbəb oldu. Az qala hər bir erməni ailəsi övladlarının, yaxınlarının itgisi acısı ilə yaşayır və bunun günahkarlarından biri də Nikol Paşinyan özüdür. Bu gün Ermənistan hakimiyyəti vəziyyəti stabilləşdirmək, qonşu ölkələrlə münasibətləri normallaşdırmaq, kommunikasiyaların açılmasına nail olmaq, bununla da ölkəni sıxıntılı vəziyyətdən, küncə qısılmış haldan çıxarmaq əvəzinə güclü repressiv aparatı ilə fəaliyyətini davam etdirir və Paşinyan komandası ölkəni xilas etməkdənsə, çoxlu siyasi rəqibləri ilə işi yoluna qoymaqla məşğuldur. Bu isə həmin ölkənin, Ermənistanın hələ də daha çox itirmək riskini artırır. Əbəs yerə deyil ki, Ermənistan əhalisi onun dırnaqarası "xoşbəxt gələcəyinə" inanmayaraq oranı tərk etməyə davam edir.

Ermənistanda çox təhlükəli vəziyyət yaranıb və bu gün həmin ölkədə hamı bir-birinin əleyhinədir. Bu, ən çox sözün əsl mənasında hədsiz nifrətlə qaynayan sosial şəbəkələrdə də özünü göstərir. Bir-birinə nifrət hissi dərhal özünü göstərir. Nikolçular koçaryançılara, serjikçilər sasnaserçilərə, daşnaklar isə bir başqalarına nifrətini gizlətmirlər. Onlar hakimiyyəti satqınlıqda günahlandırırlar və məğlubiyyətdən sonra bütün dünyada biabır olduqlarını da bildirirlər. Bütün dünyanın onlara güldüyünə də əmindirlər. Bir çoxları etiraf edirlər ki, Azərbaycanın işğaldan azad etdiyi torpaqlar onlara məxsus olmayıb və heç onlara lazım da deyil. Digərləri etraf edirlər ki, müharibə zamanı ermənilər bir qədər əvvəl təcavüzlə ələ keçirdikləri torpaqları qoyub İrəvana qaçırdılar və indi cəsarətdən dəm vurmağa onların haqları yoxdur. Ümumdünya İnternet şəbəkəsində ermənilərin minlərlə belə şərhləri var. Bu isə həmin ölkədə son dərəcə təhlükəli əhval-ruhiyyə barometridir. Özü də təkcə ölkədə deyil, eləcə də erməni cəmiyyətinfə, erməni diasporlarında, lobbilərində hamının bir-birinə qarşı olduğu özünü dərhal göstərir.

Bu gün siyasi mənsubiyyətindən və yaşadığı bölgədən asılı olmayaraq hər bir ermənin vəzifəsi bu prosesi dayandırmaq, resurslarını, əgər qalıbsa, bərpa etmək, düzgün yol seçmək olmalıdır. Ən azından sağ qalmaları, mövcud olmaları üçün ermənilərin doğru yolu seçmələri gərəkir. Ermənistanın istər iqtidarı, istərsə də müxalifəti sadəcə olaraq öz ambisiyalarını bir kənara qoyub xilas üçün birgə proqramlar hazırlamağı düşünməlidirlər, əgər həqiqətən də ölkələrini düşünürlərsə. Dərin böhranlı vəziyyətdən çıxış yolu tapmazlarsa, Ermənistan bir gəmi kimi batmaq təhlükəsi altındadır və bunu anladıqları halda hələ də ambisiyalar ortadadırsa, deməli, ermənilər özləri indi özlərinə düşmən kəsiliblər.





***İnam Hacıyev***

# Saxta qazi olmur, saxta insanlar olur

## QAZİLƏR SİA-YA DANIŞDI

**Xalqımızın 30 illik həsrətinə nəhayət son qoyuldu. Torpaqlarımız düşmən tapdağı altından xilas oldu. Bunların hamısı Azərbaycan Respublikasının Ali Baş Komandanı İlham Əliyevin və müzəffər ordumuzun gücü sayəsində baş verib. Biz bununla bütün dünyaya öz gücümüzü göstərdik.**

Dövlətimiz vətən uğrunda canından keçən şəhidlərimizin ailəsi, qazilərimiz, müharibə iştirakçılarımız üçün bir çox tədbirlər həyata keçirib. Onların həyat və şəraitinin yaxşılaşdırılması istiqamətində bir sıra sərəncamlar imzalanıb, qazilərimizin müalicəsi üçün reabilitasiya mərkəzi yaradılıb. SİA olaraq qazilərimiz arasında sorğu keçirdik:



**Xüsusi təyinatlı qazi Elvin Vəlizadə:** "Müharibə bitdikdən sonra Cənab Ali Baş komandanın göstəriş və





tapşırıqlarına əsasən şəhid ailələrinə, qazilərə, müharibə veteranlarına xüsusi diqqət və qayğının göstərilməsinə başlanıldı. "Yaşat" Fondunun yaradılması bütün növ sosial təminat növləri ilə təmin olunma buna misal olaraq göstərilə bilər. Şəhidlərimizin adlarının tanınması və əbədiləşdirilməsi üçün görülən işləri də müsbət qiymətləndirmək olar. Unutmayaq ki, bugünkü müstəqilliyi Ulu Öndərin siyasətinə və bu siyasəti şərəflə davam etdirən Ali Baş Komandan İlham Əliyevə, şəhidlərimizə qazilərimizə müharibə veteranlarına borcluyuq. Bir daha göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına Ali Baş Komandan cənab İlham Əliyevə təşəkkürümü bildirirəm. Cəbrayıl, Füzuli, Xocavənd və Şuşa istiqamətlərində döyüşmüşəm. Qırmızı bazar deyilən ərazidə mühasirəyə düşmüşük, yaralanmışam. Cəbrayıl, Füzuli, Xocavənd, Şuşa şəhərinin azad olunması vətən uğrunda medalları ilə təltif olunmuşam".

**Qazi Ramil Bayramov:** "44 günlük Vətən müharibəsində iştirak etmişəm və vətənimin dar günündə onu qorumağı özümə borc bildim. Müharibə zamanı 2 dəfə yaralanmışam. 3-cü qrup Qarabağ əliliyəm. Birinci yaralanmamda kəllə-beyin sirkələnməsi almışam. Dövlət hər zaman şəhid ailələrinin və qazilərin yanındadır. Onların həyat şəraitinin yaxşılaşdırılması üçün bir çox tədbirlər görürlər. Bir çox şəhid ailələri və qazilər mənzillə təmin olunub. Maşınlarla təmin olunub. Şükürlər olsun ki, dövlət bizim arxamıxdadır".

**Xüsusi təyinatlı ehtiyyatda olan gizir Rəşad Novruzov:** "Torpaqları-



mızın ərazi bütövlüyü uğrunda canlarını vermiş şəhidlərimizin hər birinə Allah rəhmət eləsin. Qazilərimizə şəfa arzulayıram, tezliklə sağlamlıqlarına qovuşmalarını arzulayıram. Azərbaycan ordusu Vətən müharibəsində böyük şücaət göstərmişlər. Düşmən üzərində tarixi qələbə qazandı. Saxta qazi olmur, saxta insanlar olur. Saxtalığa əl atan insanlar olur. Hələ də qaziliyi təsdiq olunmayan döyüşçülərimiz var. Müzəffər Ali Baş Komandan İlham Əliyevin yürütdüyü siyasət çox uğurludur. Azərbaycan ordusunun bu tarixi qələbəsi hər birimiz üçün böyük bir qərardır. Məktəb dövründə hər zaman torpaqlarımızın 20 faizinin işğal altında olduğundan danışırdıq. Ölkə başçısı İlham Əliyevin uğurlu siyasəti nəticəsində ölkəmiz gündən-günə çiçəklənir, ordumuz inkişaf edir. İlham Əliyevin yürütdüyü bu siyasət həm şəhid ailələrinin, həm də qazilərin məişət həyatının yaxşılaşdırılması istiqamətində uğurla davam etdirilir. Cənab Prezidentin xüsusi göstərişi ilə 44 günlük Vətən müharibəsində yaralanmış qazilərin və şəhid ailələrinin sosial rifahının yaxşılaşdırılması üçün dövlət müəsisələrinə xüsusi göstərişlər vermişdir. Qazilərimiz müalicə üçün xarici ölkələrə göndərilir. Müasir protezlərlə təmin olunurlar".

**Müharibə veteranı Rəsul Abbasov:** "Oktyabrın 10-da könüllü olaraq müharibəyə qatıldım və bacardığım qədər vətənimi qorumağa çalışdım.



Cəbrayıl, Qubadlı, Laçın istiqamətlərində gedən döyüşlərdə iştirak etmişəm. "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medallarla təltif olunmuşam. Hazırda prezident təqaüdü alıram. Var olsun dövlətimiz! Dövlətimiz və ölkə başçımız hər zaman şəhid ailələrinə və qazilərə diqqət, qayğı göstərib".

*Abutel İlhamqızı*

ABDULLA ŞAHİD:

## "BMT Azərbaycanla əməkdaşlığa böyük önəm verir"



"BMT Azərbaycanla əməkdaşlığa böyük önəm verir." Bunu BMT Baş Assambleyasının 76-cı sessiyasının prezidenti Abdulla Şahid jurnalistlərə müsahibəsində deyib.

Azərbaycanın dünyada pandemiya ilə mübarizədə rolunu yüksək qiymətləndirən BMT-nin nümayəndəsi ölkəmizin dayanıqlı inkişaf yolunda uğurlarını qeyd edib. Abdulla Şahid regionda sülhün və təhlükəsizliyin təmin olunması baxımından tezliklə sülh sazişinin bağlanması üçün edilən cəhdlərin əhəmiyyətini vurğulayıb.

## "Azərbaycan ilə Türkiyənin əməkdaşlıq əlaqələri unikal müttəfiqlik nümunəsidir"



"Bu gün Azərbaycan-Türkiyə münasibətləri ən yüksək zirvədədir. Bu zirvənin ən yüsək nöqtəsi isə ötən il iyunun 15-də iki ölkə arasında Müttəfiqlik haqqında Şuşa Bəyannaməsinin imzalanmasıdır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva deyib.

Deputatın sözlərinə görə, Azərbaycan ilə Türkiyənin əməkdaşlıq əlaqələri unikal müttəfiqlik nümunəsidir. Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsində strateji əhəmiyyət kəsb edən bütün əməkdaşlıq istiqamətləri əhatə olunur. Bəyannamədə beynəlxalq müstəvidə birgə əməkdaşlıq, siyasi münasibətlər, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti və s. məqamlar əksini tapır. Həmçinin Bəyannamədə enerji təhlükəsizliyi, Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan və Avropa üçün önəmi göstərilir.

Şuşa Bəyannaməsində hərbi əməkdaşlıq amilinə də xüsusi yer verildiyini deyən S.Fətəliyeva qeyd edib ki, bu, tarixi nailiyyətdir. Bu, bir daha göstərir ki, biz bundan sonra da hər zaman bir yerdə olacağıq. Bundan sonra da birbirimizin təhlükəsizliyini təmin edəcəyik. Necə ki, bu günə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq.

S.Fətəliyevanın fikrincə, Şuşa Bəyannaməsi Azərbaycan ilə Türkiyənin qardaşlığını bütün dünyaya nümayiş etdirən bir mesajdır: "Şuşada dalğalanan Azərbaycan və Türkiyə bayraqları ölkələrimizin birliyini nümayiş etdirir. İkinci Qarabağ müharibəsi başlanan gündən, ilk saatlardan Türkiyə Prezidenti Azərbaycana birmənalı, dəqiq və açıq dəstək ifadə edib. Müharibənin ilk günlərindən Türkiyə Prezidenti bildirdi ki, Azərbaycan tək deyil. Bu, həm bizi ruhlandırdı, eyni zamanda, müharibəyə müdaxilə etmək fikrində olan bütün qüvvələri, dairələri dayanmağa vadar etdi".

"Beləliklə, Azərbaycanla Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə davamlı inkişafını təmin edəcək. eyni zamanda, Şuşa Bəyannaməsi çoxşaxəli müttəfiqliyin rəmzi hesab oluna bilər. Bəyannamə sayəsində Türkiyə və Azərbaycan münasibətləri rəsmən müttəfiqlik zirvəsinə ucaldı. Həmçinin, Şuşa Bəyannaməsi bölgədə inteqrasiya proseslərini stimullaşdırır, əhatəli sülhə yol açır. Eləcə də, Bəyannamə Qarabağ ərazisində yaşayan erməni əsilli Azərbaycan vətəndaşlarının inteqrasiyası üçün əlavə imkanlar yaradır. Bundan başqa, sənəd Azərbaycanın siyasi, diplomatik və iqtisadi uğurudur.Bəyannamədə nəzərdə tutulan hərbi əməkdaşlıq, regional əhəmiyyət daşıyan iqtisadi layihələr və bütün digər müstəvilər əhatə edən təşəbbüslər ölkənin beynəlxalq nüfuzunu daha da artıracaq. Digər bir vacib məqam ondan ibarətdir ki, Bəyannamə ölkələr arasında münasibətlərin gələcəyini müəyyən edir və iki ölkə arasında əlaqələri ən yüksək səviyyəyə qaldırır. Bir sözlə, Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır və Şuşa Bəyannaməsi bu qardaşlığı daha da gücləndirir",-deyə Sevinc Fətəliyeva vurğulayıb.

*Ayşən Vəli*

# "Azərbaycan dövlətinin xilas günü"

## *Pirallahı rayonunda bu mövzuda tədbir keçirilib*

**Dünən Pirallahı rayonunda 15 iyun - Milli Qurtuluş Günü ilə bağlı "Azərbaycan dövlətinin xilas günü" mövzusunda tədbir keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə RİH başçısı Vasif İmanov, millət vəkili Cavid Osmanov, "SƏS" qəzetinin baş redaktoru Bəhruz Quliyev, YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.**

Tədbir Rayon İcra Hakimiyyətinin foyesində Heydər Əliyevin büstü önünə gül qoyma mərasimi ilə başlayıb. İlk öncə dövlət himnimiz səsləndirilib, Ümummilli Liderin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik



sükutla yad edilib. Ümummilli Lider, böyük azərbaycanlı Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş film nümayiş olunub.

Tədbirdə Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov çıxış edərək diqqətə çatdırıb ki, Azərbaycan xalqı öz bö-



yük oğlu Heydər Əliyevi yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Çünki Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur. 1990-1993-cü illərdə ölkəmizdə baş verən hadisələr onu göstərdi ki, Azərbaycanın nicatı yalnız ulu öndərin ideyalarındadır. Azərbaycan 1991-ci ildə bərpa olunmuş müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə idi. Ölkəmizdə anarxiya və xaos hökm sürürdü. Torpaqlarımız işğal olunur, Azərbaycan məhvə sürüklənirdi. Ölkəmiz real olaraq parçalanmaq təhlükəsi qarşısında qalmışdı. Bir sözlə, qurtuluş Azərbaycanda qaçılmaz zərurətə çevrilmişdi. Bu qurtuluşu



isə yalnız Ümummilli Liderimiz Heydər Əliyev kimi dahi şəxsiyyət həyata keçirə bilərdi. Məhz bu tarixi qayıdış Azərbaycanın varlığını, müstəqilliyini, dövlətçiliyini qoruyub saxladı, ölkəni parçalanmaqdan, vətəndaş müharibəsindən xilas etdi. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsinin müstəqil Azərbaycan dövlətinin ana xəttini təşkil etdiyini vurğulayan natiq, xalqımızın Ümummilli Lider Heydər Əliyevin siyasi varisi, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəx-



siyyət kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşdiyini tədbir iştirakçılarının diqqətinə çatdırmışdır. Hər zaman olduğu kimi 44 günlük Vətən müharibəsində də haqq işimizdə bizim yanımızda olan Türkiyə ilə Azərbaycan münasibətindən danışan Vasif İmanov Şuşa Bəyannaməsinin imzalanmasından bir il ötdüyünü qeyd edərək bildirmişdir ki, Türkiyə-Azərbaycan dostluğu əbədidir.

Millət vəkili, Milli Məclisin Regional məsələlər komitəsinin üzvü Cavid Osmanov çıxış edərək qeyd edib ki, bütün varlığı ilə vətəninə bağlı olan dünya şöhrətli dövlət xadimi Heydər Əliyev çağdaş tariximizdə əbədiləşmiş, respublikamıza rəhbərliyinin bütün dövrlərində xalq qarşısında misilsiz xidmətlər, xilaskarıq missiyası, zəngin dövlətçilik nümunəsi göstərmişdir.



Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın rifahını düşünərək bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərərək, qəlblərdə daim sevgi, xatirələrdə əbədiyaşarlıq qazanmışdır. Yüksək liderlik keyfiyyətlərinə malik olan ulu öndər Heydər Əliyev qısa zaman kəsiyində ölkədə sabitliyi təmin etdi, müstəqilliyimiz və suverenliyimizə qarşı yönəlmiş mövcud və potensial təhlükələri aradan qaldırdı. Unikal strateji baxış sərgiləyərək Azərbaycanın bir-birini riyazi dəqiqliklə tamamlayan mərhələləri əhatə edən milli inkişaf strategiyasını müəyyənləşdirdi. Əsas komponentlərini sabitliyin təmin olunması, milli iqtisadi sistemin yaradılması və milli ordu quruculuğunun təşkil etdiyi unikal inkişaf strategiyası ölkənin davamlı uğurlarını və milli təhlükəsizliyimizin ən vacib məsələsinin həll olunmasını təmin etdi. Azərbaycanın Heydər Əliyevin adı ilə bağlı olan sürətli inkişafının bu gün də yüksək dinamika ilə davam etməsi o dövrdən başlayan yüksəliş strategiyasının böyük zaman kəsiyini əhatə edən dövlətçilik konsepsiyasını yerinə yetirdiyini qətiyyətlə sübut edir.

"SƏS" qəzetinin baş redaktoru, SƏS Media Qrupunun təsisçisi və rəhbəri Bəhruz Quliyev çıxış edərək vurğulayıb ki, böyük şəxsiyyətlər yaşayıb yaratdıqları, fəaliyyət göstərdikləri zamanlarda siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə irəliyə aparmaqla adlarını əbədi olaraq tarixə yazırlar. Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Azərbaycan xalqı da hər zaman müasir dövlətimizin memarı və qurucusu, xalqının və ölkəsinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş dahi şəxsiyyət Heydər Əliyevi qürur hissi ilə xatırlayır. Ümummilli Lider Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir. Bəhruz Quliyev müstəqil Azərbaycan Respublikasının dövründə böyüyüb boya başa çatmış vətənpərvərlik ruhunda tərbiyə almış gənclərin torpaqlarımızın azad olunmasında müstəsna xidmətləri olduğunu vurğulayıb.

YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov öz çıxışında bildirib ki, Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı bu şəxsiyyəti təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının liderliyinə yüksəldib, ömür yolu isə vətənə xidmətin parlaq nümunəsinə çevrilib. Bütün həyatını xalqına və vətəninə həsr etmiş Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının tarixinə müstəqilliyimizin memarı və qurucusu kimi daxil olub. Tədbirin sonunda Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunmuş Sadıxov Samir Fərman oğluna RİH başçısı tərəfindən medalı təqdim olunaraq şəhid ailələri və Vətən müharibəsi iştirakçıları ilə xatirə şəkili çəkdirilib.

***Arzu Qurbanlı***

# "Şuşa bəyannaməsi Türkiyə-Azərbaycan müttəfiqliyinin əlaqələrinin zirvəsidir"

"Şuşa bəyannaməsi Türkiyə-Azərbaycan müttəfiqliyinin rəsmi sənədidir". Bu sözləri SİA-ya açıqlamasında Türkiyənin Azərbaycandakı sabiq səfiri, İMZA Sosial İnkişafa Dəstək İctimai Birliyinin Türkiyə nümayəndəsi Hulusi Kılıç deyib.



Onun sözlərinə görə, 15 iyun 2021-ci ildə tarixi şəhər olan Şuşada tarixi sənəd imzalanıb: "Şuşa bəyannaməsi Türkiyə-Azərbaycan müttəfiqliyinin əlaqələrinin zirvəsidir. Şuşa bəyannaməsi Türkiyə-Azərbaycan münasibətləri üçün yeni bir dönəmin başlanğıcıdır. Bu sənəd həmçinin dərslik kimi məktəblərdə keçirilməlidir. Şuşa bəyannaməsi iqtisadi, siyasi, hərbi, mədəni, bir sözlə bütün sahələrdə bir yol xəritəsidir.

Şuşa bəyannaməsində iki əsas məqam var. Birincisi iki ölkənin təhlükəsizliyi təmin olunmalıdır. Yəni Türkiyəyə hər hansı bir hərbi hücum olarsa, Azərbaycan Türkiyənin, Azərbaycana hər hansı bir hərbi hücum olarsa, Türkiyə Azərbaycanın yanında olacaq. İkinci məqam isə Zəngəzur dəhlizi ilə əlaqədardır. Zəngəzur dəhlizinin açılması ilə birlikdə həm Azərbaycan və Türkiyə, həm də bölgə üçün böyük əhəmiyyətə malikdir. Şuşa bəyannaməsi hər iki qardaş ölkə üçün çox mühüm əhəmiyyətə malik bir sənəddir. Bu bəyannamə Türkiyə və Azərbaycan arasında bu günə qədər imzalanan müqavilələri özündə cəmləyir".

***Arzu Qurbanlı***

## "Azərbaycan Qarabağda yenidənqurma və bərpa işlərini müvəffəqiyyətlə yerinə yetirir"




Azərbaycan işğaldan azad edilmiş Qarabağda yenidənqurma və bərpa işlərini müvəffəqiyyətlə yerinə yetirir. Bu sözləri AZƏRTAC-a müsahibəsində Roma Sapienza Universitetinin tədqiqatçısı, professor Daniel Pommier Vinçelli deyib.

İtalyan professor Qarabağda aparılan yenidənqurma və bərpa işlərini şərh edərkən deyib: "Füzuli Beynəlxalq Hava Limanı ilə tanışlıq, Füzuli-Şuşa avtomobil yolu, ən əsası Azərbaycanın mədəniyyət paytaxtı Şuşadakı bir çox binada aparılan təmir-bərpa işləri məndə xoş təəssürat yaratdı. İşğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatlarını xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan hazırda Qarabağda yenidənqurma və abadlıq-quruculuq işlərini müvəffəqiyyətlə yerinə yetirir. Düşünürəm ki, bütün bu işlər regionda sülhün yenidən qazanılmasında möhkəm bünövrə rolunu oynayacaq". Qeyd edək ki, Daniel Pommier Vinçelli aprelin sonlarında Şuşa şəhərində keçirilmiş "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" adlı beynəlxalq forumun iştirakçılarından olub. O, həmçinin italyan dilində nəşr edilən "Azərbaycanın mədəniyyət paytaxtı Şuşa" kitabının həmmüəllifidir.

*Əgər o vaxt xalqın tələbi ilə Heydər Əliyev hakimiyyətə gəlməsəydi, Azərbaycanın taleyi çox ağır, acınacaqlı ola bilərdi. Onu da qeyd etməliyəm ki, Heydər Əliyevi Naxçıvanda devirmək, o cümlədən silahlı desant göndərmək istəyən AXC-Müsavat qruplaşması özü də ağır vəziyyətə düşəndən sonra Heydər Əliyevə müraciət etdi, onu Bakıya dəvət etdi ki, onların canlarını qurtarsın. Naxçıvana üç dəfə təyyarə göndərmişdilər. Heydər Əliyev Bakıya gəlməklə, ilk növbədə, Azərbaycan xalqının iradəsinə öz hörmətini göstərdi. O, böyük dövlət adamı, vətənpərvər insan kimi o ağır anlarda Bakıya gəldi və ondan sonra Azərbaycanda inkişaf dövrü başlamışdır.*

***İlham ƏLİYEV***
*Azərbaycan Respublikasının Prezidenti*

# HEYDƏR ƏLİYEV:
## xilas missiyası və inkişafın başlanğıcı - əbədi tarix faktoru!



*MƏQALƏ*

9 və 15 iyun tarixləri sözün həqiqi mənasında, xalqımızın taleyində dönüş anı yaratması ilə yanaşı həm də böyük Qurtuluş missiyasının başlanğıcı olmuşdur. Məhz milli tariximizin həmin unudulmaz günləri Ulu Öndər Heydər Əliyevin ölkə paytaxtına qayıdışı ilə müstəqil dövlətçiliyimiz parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas edilmişdir.

Onu da qeyd edək ki, xalqımızın nicatı və milli dövlətçiliyimizin xilası əslində böyük Qurtuluşdan - iyunun 15-dən başlasa da qurtuluşun mühüm zəmini də məhz iyunun 9-da yaranmışdır. Məhz bu günlərdə Ulu Öndər Heydər Əliyev Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində çox mühüm bir addım atmışdır. Bütün tarixçilər və siyasətçilər haqlı olaraq adı çəkilən addımların qurtuluş məfkurəsinə istinad edərək atıldığını söyləyirlər. Bu da təsadüfi deyildi. Çünki xalqımız və ziyalılarımız Heydər Əliyevin siyasi uzaqgörənliyinin istiqamətlərini hələ əsrin 70- ci illərindən bilirdi.

Ölkəmizdə ilk dəfə 1969-1982- ci illərdə hakimiyyətdə olan Heydər Əliyev öz xalqını zamanın ən çətin sınaqlarından çıxararaq, ölkənin iqtisadi, siyasi və mədəni tərəqqisinə nail olmuş, geniş vüsət alan inkişaf proseslərinə təkan vermişdir. Ümummilli Lider ömrü boyu Azərbaycan xalqının rifahı naminə çalışmış və hansı sahədə fəaliyyət göstərməsindən asılı olmayaraq, bacarığı, qabiliyyəti, fitri istedadı ilə diqqəti cəlb etmişdir. Ona görə də 1993-cü ilin iyununda Ümummilli Liderimizin Naxçıvandan Bakıya gəlişi xalqın böyük məmnunluğuna səbəb olmuşdur.

Onu da qeyd edək ki, nəinki müstəqilliyin ilk illərində üzləşdiyimiz bəlalar, hətta ondan bir neçə il əvvəllər başımıza gətirilən müsibətlər də məhz Ulu Öndərin böyük siyasətdən kənarda olmasının nəticəsi idi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin məhz Heydər Əliyevin siyasi hakimiyyətdən istefasından sonra baş verməsi də təsadüfi deyildi. O, Azərbaycanda və ya Moskvada hakimiyyətdə olarkən heç kim bu barədə danışmağa belə cürət edə bilmirdi. 1990-cı ilin yanvarında xalqımıza qarşı törədilən qanlı faciəyə biganə qala bilməyən Heydər Əliyev hadisələrin gərginliyinə, müxtəlif təhlükələrə baxmayaraq, ölkəmizin Moskvadakı Nümayəndəliyinə gələrək, sovet rəhbərliyinə qarşı kəskin bəyanatla çıxış etmişdi. Onun həmin tarixi çıxışı Azərbaycanın siyasi həyatında yeni dövrün başlandığını bildirən ilk çağırış, milli azadlıq hərəkatına verilən möhtəşəm dəstək idi. Məhz 20 Yanvar hadisələrindən sonra Ulu Öndərin Azərbaycana qayıtması, keçmiş sovet sisteminin oyuncağı olan yerli rəhbərliyin ona qarşı xəyanətkar hərəkətləri, ona Bakıda yaşamağa və işləməyə imkan verilmədiyi indi hamıya məlumdur. Eyni zamanda, o da bəllidir ki, Heydər Əliyev Moskvada qalaraq yaşayıb-fəaliyyət göstərə bilərdi. Lakin o, sakitliyi və rahatlığı deyil, Azərbaycanın taleyini düşünmüşdü. Onun möhtəşəm qayıdışını doğulub boya-başa çatdığı Naxçıvan torpağı, yerli əhali hədsiz sevgi, məhəbbət və inamla qarşılamışdı. Hətta naxçıvanlılar bütün manеələrə baxmayaraq, qısa müddət ərzində onu özlərinə rəhbər seçmişdilər. Heydər Əliyev hər zaman olduğu kimi, öz gəlişi ilə Naxçıvana yeni nəfəs gətirmiş, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim Azərbaycan torpağını dirçəltməyə başlamışdı.

Beləliklə, Azərbaycan dövlətçiliyini xilas etmək naminə Heydər Əliyevin ölkə rəhbərliyinə gətirilməsini tələb etməyə başladı. Ölkədə yaranmış dözülməz şərait, respublikanın vətəndaş müharibəsi, parçalanma və dağılma təhlükəsi ilə üzləşməsi, Ermənistanın hərbi təcavüzünün genişlənməsi qəti addımların atılmasını, hakimiyyətin etibarlı əllərə tapşırılmasını tələb edirdi. Əlbəttə, xalqının görkəmli oğlu, alovlu vətənpərvər bu acı hadisələrə laqeyd qala bilməzdi.

Belə bir zaman kəsimində - xalqımız milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Davamlı və təkidli çağırışlarını nəzərə alan Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Ulu Öndərin bu qayıdışı Vətənin xilası, xalqın qurtuluşu idi!

Xalqımızın xoşbəxtliyidir ki, bu gün dövlət və cəmiyyət həyatının bütün sahələrində Prezident İlham Əliyev də Heydər Əliyevə xas olan möhkəm iradə və qətiyyətli mövqe nümayiş etdirir, Azərbaycan dövlətinin qüdrətini, sarsılmaz təmələ malik olduğunu öz məhsuldar fəaliyyəti ilə sübut edir. Xalqımızın firavan gələcəyinin təminatına hesablanmış praqmatik siyasi strategiya sayəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş, ölkəmizin nüfuzu daha da artmışdır.

Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi irsini layiqincə davam etdirən, Onun milli-dövlətçilik ideologiyasını yaşadan, inkişaf etdirən Prezident İlham Əliyevin fenomenal idarəetmə qabiliyyətinin nəticəsidir ki, ölkəmiz bütün sahələr üzrə inkişaf tempinə görə dünyanın ən qabaqcıl ölkələrindən biridir. Və ən əsası, 2020-ci ildə torpaqlarımızın 44 günlük Vətən müharibəsində işğaldan azad edilməsi yönündə dünyanı heyran qoyan qətiyyət və iradə Azərbaycan dövətinin və xalqının nüfuzunu daha da yüksəklərə qaldırdı. Əbəs deyil ki, dövlətimizi başçısı Şuşa şəhəinin erməni işğalından azad edildiyi gün Ata vəsiyyətini yerinə yetirdiyini qürurla vurğuladı və bu reallıq hər bir ölkəvətəndaşının qəlbini riqqətə gətirdi. Bu gün qalib və zəfər dolu Azərbaycan inamla növbəti qələbələrə doğru addımlamaqdadır.

***Gülnarə XUDİYEVA,***
***YAP Qaradağ rayon təşkilatı***

## “Şuşa Bəyannaməsi münasibətlərimizin daha da güclənməsinə imkan yaratdı”



”2021-ci il iyunun 15-də ölkəmizin mədəniyyət beşiyi olan Şuşa şəhərində imzalanmış Şuşa Bəyannaməsi Türkiyə ilə qardaşlıq münasibətlərimizin daha da güclənməsinə imkan yaratdı, ölkələrimiz arasında olan münasibətlərin inkişafında yeni səhifə açdı. Bu tarixi bəyannamə ilə iki ölkə arasında enerji təhlükəsizliyi, nəqliyyat, mədəniyyət, təhsil, ordu quruculuğu, iqtisadiyyat və digər önəmli sahələrdə yeni müttəfiqlik əlaqələri yaradıldı”. Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.

Onun sözlərinə görə, bəyannamənin əsas məqsədi Türkiyə ilə Azərbaycan arasındakı münasibətləri pik həddə çatdırmaqdır: ”Şuşa Bəyannaməsi ölkəmizin beynəlxalq arenadakı nüfuzunu artıracaq, iki ölkə arasında münasibətlərin davamlı inkişafını təmin edəcək, gələcək nəsillərə ölkələrimizin tarixi birliyini nümayiş etdirəcəkdir. Şuşa Bəyannaməsi ilə Qarabağda edilən investisiyaların həcmi artacaq, böyük şirkətlər, investorlar tərəfindən işğaldan azad edilən ərazilərimizdə bərpa və quruculuq işləri üçün yeni maliyyə yatırımları ediləcək, sıx əməkdaşlıqlar yaradılacaqdır”.

Deputat sözlərinə belə davam edib: ”Əməkdaşlığımız yeni kommunikasiya əlaqələrinin yaranmasına imkan yaradacaqdır. Zəngəzur dəhlizinin reallaşması ilə Türkiyə və Azərbaycan arasında münasibətlərin inkişafı yeni tarixi mərhələyə qədəm qoyacaqdır.

Bəyannamədə qeyd edilən ən önəmli məsələlərdən biri də müdafiə sahəsində əməkdaşlıq və qarşılıqlı hərbi yardım məsələləridir. Bu tarixi bəyannamə ilə Azərbaycan və Türkiyə bir-birinin təhlükəsizliyini təmin edəcəkdir. Tarixi oxşar Azərbaycan və Türkiyə bir araya gələrək inkişafımızı, əlaqələrimizi daha da üst səviyyəyə çatdırmağı planlayır. Regionda sülhün təmin olunması, mehriban qonşuluq münasibətlərinin qurulması üçün Azərbaycan və Türkiyə birlikdə fəaliyyət göstərir. Bizim münasibətlərimiz inkişaf etdikcə regionda sabitlik də buna paralel olaraq artacaqdır”.

***Ayşən Vəli***

## “3500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlərlə təmin edilib”



“Bu il daha 1500 şəhid ailəsi və müharibə əlilinə mənzil və fərdi evin verilməsi nəzərdə tutulub”. SİA xəbər verir ki, bu fikirləri Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov postmüharibə dövründə şəhid ailələri və müharibə əlillərinin mənzil və avtomobillə, sosial xidmətlərlə təminatı işlərinə dair keçirdiyi mətbuat konfransında bildirib.

Sədr qeyd edib ki, 2021-ci ildə 3 min, 44 günlük Vətən müharibəsindən sonra isə 3500 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlərlə təmin edilib.

***Abutel İlhamqızı***

ARAŞDIRMA



# Piknikdən sonra ətrafı niyə çirkləndiririk?

**Yaz və yay aylarında insanların asudə vaxtlarını dəyərləndirməsi üçün ən gözəl istirahət növlərindən biri piknikdir. Piknik uyğun açıq şəraitdə - adətən parkda, göl kənarında və ya maraqlı mənzərəsi olan hər hansı təbii şəraitdə bir günlük səfər zamanı baş verən yemək və istirahət üçün fəaliyyətdir.**

Bu gün dünyanın hər yerində müxtəlif piknik mədəniyyətləri mövcuddur. Təbiət qoynunda yemək bişirmək də piknikin bir hissəsidir. Xüsusilə maraqlı pikniklərdə açıq havada oyunlar və ya digər əyləncələr həyata keçirilir.

Piknik sözü 18-ci əsrdə ortaya çıxsa da, "piknik" anlayışının orta əsrlərdən bəri mövcud olduğu və bugünkü pikniklərin tarixinin zəngin insanların təşkil etdiyi ov məclisləri üzərində qurulduğu iddia edilir.

18-ci əsrdə Fransada piknik açıq hava hadisəsi deyil, hər kəsin yemək və içki gətirdiyi və bəzən musiqi və rəqslə söhbət etdiyi qapalı bir tədbir idi. Fransız İnqilabı zamanı İngiltərəyə qaçan fransız aristokratları vasitəsilə ingilis aristokratları arasında piknik yayıldı. Viktoriya dövründəki İngiltərədə piknik yuxarı siniflərin stolları, stullarını, salfetləri, kristalları və qulluqçularını götürdüyü bir hadisə idi və status simvolu idi. Piknik əvvəllər daha çox fəhlə sinfi arasında geniş yayılmışdı.

Ölkələr üzrə piknik adətləri:

## Argentina

Argentinada Milad bayramları zamanı pikniklər adi haldır. Sahildə və ya evlərinin bağçasında qızardılmış və ya qovrulmuş keçi, hinduşka və ya donuz əti yeyilir.

## Avstraliya

Avstraliyada pikniklər üçün xüsusi bayram var: avqustun ilk bazar ertəsi "Dəmiryol İrsi Piknik Günü" kimi qeyd olunur. Bazar ertəsi bayram olduğu üçün ailələr piknik etmək və kəndir çəkmək, rəqs etmək və mahnı oxumaq kimi əyləncələrlə dolu uzun həftə sonu keçirmək imkanına malikdirlər. 19-cu əsrdə dəmiryolçular və dövlət qulluqçuları tərəfindən qoyulan bu ənənə bir müddət kəsilsə də, 1930-cu illərdən bəri davam etdirilir.

## Yaponiya

Yaponiyada yaz mövsümündə sakura və hanaminin (çiçək seyr festivalı) çiçəklənməsini qeyd etmək üçün pikniklər çox məşhurdur. Burada evdə hazırlanan yeməklər və ya çöldən alınan qəlyanaltılar istehlak edilir. Orta əsrlərdə aristokratların sakura çiçəklənməsi ilə bağlı vaka şeirləri yazmaq adəti zaman keçdikcə xalq tərəfindən mənimsənilmiş və albalı ağacları altında gəzintilərə çevrilərək geniş yayılmışdır.

## Piknik səbətində nə olmalıdır?

Zeytun, pendir, mürəbbə, qaynadılmış yumurta kimi səhər yeməyi.

Xəmir növləri, mərcimekli köftələr.

Dolma növləri.

Tortlar və ya kekslər.

Çay, qəhvə və sərinləşdirici içkilər.

Boşqab və bıçaq.

Termos.

Piknik örtüyü.

Şortlar və uzun donlar piknikə gedərkən geyinmək üçün ən rahat paltarlardır. İstəyirsinizsə, yüksəkbel cins şort geyinərək maraqlı stil yarada bilərsiniz. Kətan şortlar həm də piknik üçün ən xilaskar parçalardan biridir. Üst geyimə gəlincə, siz rahat olacağınız krop toplar və tulumlar geyinə bilərsiniz.

Piknikdə top oynamaq və iplə tullanma kimi ənənəvi piknik əyləncələri ilə yanaşı, stolüstü oyunlar da çox zövq verir. Nərd oynamaq, kəndir çəkmə, toplarla voleybol və ya digər top oyunları kimi əyləncəli fəaliyyətlər bura daxildir.

## Dostlarla piknik üçün nə almaq lazımdır?

Manqal

Kömür

Şiş

Manqalda bişiriləcək materiallar (ət, küftə, toyuq, kolbasa və s.)

Tərəvəzlər: Badımcan, bibər, pomidor, soğan.

Çay üçün trmos və ya samovar.

Masa örtüyü.

Saxlama qabları

Bəs, piknikdən sonra yaranan anti-sanitar vəziyyətlə bağlı nə etməliyik? Bu tullantılarla necə mübarizə aparmalıyıq? Qarşısı necə alınmalıdır? İnsanlar niyə belə edib ətraf mühitə zərər verir? SİA mövzu ilə bağlı araşdırma apararaq ekoloq və ekspertlərin fikirlərini öyrənib.

**Ekoloq Cəmşid Quliyev:** "Bu bizim ağrılı problemlərimizdən biridir. İnsanların təbiətə münasibəti onların məlumatlılığından asılıdır. Onların davranışı bu məlumatlılığın göstəricisidir. İnsanlar bilməlidir ki, onlar gedib istirahət etdikləri təbiət guşəsi ən azından restoran deyil. Yəni, onların arxasınca tökdüklərini toplayacaq bir personal yoxdur. Bu işi onlar özləri görməlidirlər. İlk öncə bilməlidirlər ki, əgər onlar tökdükləri zibilləri toplamasalar bunlar böyük fəsadlara yol aça bilər. Bu ilk növbədə orada yaşayan çöl heyvanlarına və oraya yaxın olan yaşayış evlərinə də zərər verir. Heyvanlar bu tullantılardan zərər çəkirlər. Məsələn, atılmış qida qalıqları heyvanlar tərəfindən dərhal yeyilərsə bəzən bu faciə ilə nəticələnmir. Lakin bir qədər qalıb kiflənəndən sonra canlıları zəhərləyə bilər.



Həmçinin, piknikdən qalan konserva qutuları heyvanların ayaqlarına ilişərək zərər verə və bu zədədən o başqa bir şəkildə tələf ola bilər. Bütün bu tullantılar onların həyatı üçün təhlükə yaradır.

Orada hər hansı bir quyu qazılaraq tullantılar basdırılmalıdır ki, ətraf zibillənməsin. Hətta canlılara zərər verməsə belə, estetik cəhətdən orada dincələn insanlar üçün narahatlıq yaradır. Hər dəfə yeni bir yeri zibilləyib hər tərəfi zibilxanaya çevirmək insani bir davranış deyil".

**Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov:** "Piknikdən sonra ərazini zibilli qoyub getmək mədəniyyətsizliyin göstəricisidir. İnsanlar bura istirahət üçün gəlir. Piknikdən sonra burada plastik tullantılar qalır ki, bu da estetik görünüşə ciddi ziyan vurur.



Heyvanlar tullantıları eşələyirlər və plastiklər onların boğazında qalır. Bu plastiklər onlara fərqli zərərlər verir. Bu çox təhlükəlidir.

Heyvanlar var ki, plastik tullantıları yeyirlər və sonra bu tullantı onların uzun müddət mədəsində qalaraq onları öldürür. Məsələn elə olub ki, heyvanın ağzına konserva bankası keçərək onu öldürüb. Belə hallar həmişə var və davam edir.

Azərbaycanın kənd yerlərində və rayonlarda bərk tullantıların toplanması, yığılması və idarə olunması ağır problem olaraq qalır. Hansı turist məkanına və ya piknik yerinə getsən orada mütləq zibil tullantılarına rast gəlirsən.

Məsələn turist məkanlarından biri olan Şəkinin Yuxarı Baş məhəlləsindən yuxarıda çayın aşağısına endikdə zibilliyə rast gəlirsən. Bu çox biabırçı bir vəziyyətdir və utancvericidir.

Mən, bu yaxınlarda tələbələrlə Zirəyə getmişdim. Zirədə dəniz kənarında plastik torbalar baş alıb gedir. Abreşon Milli Parkında dəniz vasitəsilə çoxlu tullantılar olur. Hər dəfə bunu təmizləsələr də yenə də bitmir. Buna mütləq rayon səviyyəsində əncam çəkinməlidir. Heç bir kənddə bərk tullantıların yığılması və emalı prosesi yoxdur. Plastik qablarda satılan içkilərin hamısı təbiəti korlayır. Bu məsələlər həll olunmalıdır. Plastik torbaların satışına ya qadağa qoyulmalı, ya da pulla satılmalıdır".

**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Təəssüf ki, Azərbaycanda piknik mədəniyyəti zəif inkişaf edib. İnsanlar özününkü olmayan hər şeyə qarşı laqeyiddirlər. Əksəriyyət piknik yerlərini zibilliyə çevirir. Bununla paralel olaraq, meşədə ocaq qalayanlar, yanğın törədənlər də var. Bu adamların hər biri inzibati qaydada cəzalandırılmalıdır.



Dövlətin elə bir imkanı yoxdur ki, hər bulağın başına bir polisi gözətçi qoysun. Biz özümüz bir-birimizə nəzarət etməliyik. Azərbaycanda ictimai nəzarət mexanizmi zəif inkişaf edir. Bu prosesi gücləndirmək, vətəndaşların ictimai iştirakçılığını artırmaq lazımdır. Meşəni yandıran, ətrafı zibilləyən adamlara etiraz etməyi bacarmalıyıq. Ən əsası isə özümüz başqalarına nümunə olmalıyıq. Heç kim incimısin, Bakı küçələri siqaret kötükləriylə doludur. Burnunu silən salfeti yerə atır. Bəziləri içdikləri suyun, şirənin qutusunu zibil qabına atmağın zəhmətinə qatlaşmaq istəmirlər. Aydın məsələdir ki, şəhərin mərkəzində küçəyə tüpürən, çəkdiyi siqaretin kötüyünü yerə atan adam dağın başında ikiqat mədəniyyətsizlik edəcək. Ətrafımızda baş verənlərə göz yumsaq, laqeyd qalsaq, "mənə nə" deyib keçsək, bu cür mənfi halların sayı daha da artacaq".

***Ayşən Vəli***

# “Azərbaycan Səninlədir- Sənsiz deyil!”

**10 iyun 2022-ci il tarixində Binəqədi rayon icra hakimiyyəti, YAP Binəqədi rayon təşkilatı, Binəqədi rayon gənclər və idman idarəsi, ”Binəqədi Gənclər Evi” sosial xidmət müəssisəsi və 6 № li Uşaq-Gənclərin İnkişaf Mərkəzinin birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci ilin ”Şuşa ili” elan edilməsi haqqında 5 yanvar 2022-ci il tarixli 3069 saylı Sərəncamının icrası məqsədilə Binəqədi rayon orta ümumtəhsil və incəsənət məktəblərinin şagirdlərinin təqdimatında ”Azərbaycan Səninlədir- Sənsiz deyil!” 10-cu Yaradıcılıq Festivalı qaliblərinin ”15 iyun-Milli Qurtuluş Günü”nə həsr olunmuş bayram konserti keçirilmişdir.**





Tədbirdə Binəqədi rayon icra hakimiyyətinin başçısı Elxan Allahverdiyev, Azərbaycan Respublikasının Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev, YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov, millət vəkilləri - Madər Musayev, Eldar İbrahimov, Kəmaləddin Qafarov, Cavid Osmanov, Arzu Nağıyev, Bakı şəhər icra hakimiyyəti başçısı Aparatının İctimai-siyasi, humanitar məsələlər və dini qurumlarla iş şöbəsinin müdiri cənab Elmin İmanov, Bakı şəhərində Naxçıvan Muxtar Respublikasının Daimi Nümayəndəliyinin rəhbəri cənab Bəxtiyar Əsgərov, Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi cənab Raqif Abbasov, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi cənab İbrahim Əliyev, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov, şəhid ailələrinin üzvləri, qazilər, Rayon İcra Hakimiyyəti başçısının müavinləri, Aparatın əməkdaşları, hüquq mühafizə orqanlarının rəhbərləri, orta ümumtəhsil, məktəbəqədər və incəsənət məktəblərinin rəhbərləri və müəllimləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdilər. Tədbirdən öncə qonaqlar Ulu Öndərin Rayon İcra Hakimiyyətinin inzibati binasında ucaldılan büstü önünə gül dəstələri qoyaraq, əziz xatirəsini böyük ehtiramla yad etdilər.

Festival Azərbaycan Respublikasının müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan, xalqın xilaskarı ulu öndər Heydər Əliyevin, Vətən uğrunda, torpaqlarımızın bütövlüyü uğrunda canından keçərək Şəhidlik zirvəsinə yüksəlmiş qəhrəmanlarımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səslənməsindən sonra açıq elan edildi. Çıxışlardan öncə artıq onuncu ildir qeyd edilən festivalda iştirakçılarının ötən dövrü ərzində əldə olunan uğurları haqqında məlumat verildi, əvvəlki festivalların fəaliyyətini əks etdirən fotolar nümayiş olundu. Festivalda münsiflər heyətinin seçim turları nəticəsində musiqi, ifaçılıq, rəqs, rəssamlıq və bədii qiraət üzrə 280-dən çox məktəbli arasında 145 nəfər məktəbli qalib seçilmişdir. Qalib iştirakçılar müxtəlif nominasiyalar üzrə ifalarını nümayiş etdirdilər.

Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev qonaqları salamlayaraq deyd etdi ki, tariximizə Milli Qurtuluş günü kimi daxil olmuş 1993-cü il ilin 15 iyun tarixi onu dərindən dərk edənlər, Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün üçün çox əziz tarix, əsil qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və ona dayaq olan dahi insan - ulu öndər Heydər Əliyevdir. Ulu Öndər Heydər Əliyev İlham Əliyev haqqında ”Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” demişdi. Həyat bu sözlərin nə qədər böyük bir həqiqət olduğunu bütün dünyaya göstərdi. Xalq, igidlər ancaq inandıqları sərkərdələrin, ədalətli döyüşün, doğma Vətən, ana torpaq üçün başlanan haqq savaşının ardınca könüllü gedir. 44 günlük Vətən müharibəsində olduğu kimi. Bu, bizim Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun xalqımıza bəxş etdiyi möhtəşəm tarixi Qələbəmiz və Zəfərimiz oldu.Azərbaycan Respublikasının Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev qeyd etdi ki, bütün bu uğurların, Azərbaycan gənclərinin günümüzün müasir, inkişaf etmiş, yüksək intellektli aparıcı qüvvə kimi formalaşmasında, birmənalı olaraq, dövlətimizin apardığı gənclər siyasətinin mühüm rolu olmuşdur. Bu siyasətin banisi isə xalqımızın ümummilli lideri Heydər Əliyevdir. 15 İyun - Milli Qurtuluş Günü təkcə dövlətçiliyimizin xilası deyil, bu tarix həm də Azərbaycanın bu gününü, sabahını müəyyənləşdirdi.Millət Vəkili Eldar İbrahimov müstəsna xidmətləri ilə əbədilik qazanan ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu haqqında məlumat verərək qeyd etdi ki, Ulu Öndərin zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.

Çıxış edən Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi, humanitar məsələlər və dini qurumlarla iş şöbəsinin müdiri Elmin İmanov ulu öndər Heydər Əliyev kimi fenomenal bir şəxsiyyətin Azərbaycanda hakimiyyətə gəlməsinin tarixi hadisə olduğunu vurğuladı. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideyasının əsasını da məhz ulu öndər Heydər Əliyev yaratmışdır. Əgər dönüb arxaya, keşməkeşli müstəqillik tariximizə, təlatümlərlə dolu illərə nəzər salsaq bir daha ümummilli liderin ucalığının şahidi olarıq. Ulu Öndər Heydər Əliyev zəngin mədəni irsimizin qorunmasını vacib hesab edərək deyirdi: ”Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır”.

Bakı Şəhər üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov qeyd etdi ki, Ulu Öndər elm və təhsilə xüsusi həssaslıqla yanaşıb, bu sahəyə daim qayğı göstərib. Ümummilli Lider öz çıxışlarında da dəfələrlə təhsilin mürəkkəb və olduqca vacib bir sahə olduğunu vurğulayaraq qeyd edib ki, ”təhsil sahəsi cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır”.Çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov qeyd etdi ki, Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında dönüş yaradıb, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinə başlanılıb. Bu gün dahi şəxsiyyətin həyatımızın bütün sahələrində yeritdiyi ideyalar artıq Azərbaycanın gerçəkliyinə çevrilib. Ötən illər ərzində Azərbaycan böyük inkişaf yolu keçib. Ölkəmizin inkişaf strategiyası məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Bugünkü Azərbaycan Ulu Öndərin görmək istədiyi Azərbaycandır.

***Zümrüd***



# “Ermənistanın təxribatları münaqişənin yenidən alovlanmasına səbəb ola bilər”

**“Moskva və Brüsselin vasitəçiliyi ilə münaqişə tərəfləri arasında aparılan danışıqlarda erməni tərəfinin ilk baxışda konstruktiv təsir bağışlayan mövqeyinə baxmayaraq indiyədək nə Moskva razılaşmasının, nə də Brüsseldə əldə edilmiş razılıqların şərtlərinin yerinə yetirilməsi istiqamətində ciddi irəliləyişlərə nail olunmayıb. Bu isə regionda gərginliyin saxlanılmasına və perspektivdə münaqişənin yenidən alovlanmasına səbəb ola bilər”. Bunu ”Səs” qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.**

Onun sözlərinə görə, Azərbaycan tərəfi indiyədək ən müxtəlif instansiyalarda Ermənistanla münasibətlərin normallaşdırılmasının, regionda dayanıqlı sülhə və təhlükəsizliyə təminat verə biləcək sülh müqaviləsinin imzalanmasının tərəfdarı olduğunu bəyan edib: ”Bundan ötrü Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 5 mühüm şərt irəli sürülüb, bunlar : tərəflərin bir birinin ərazi bütövlüyünü və suverenliyini tanıması, bir birilərinin daxili işlərinə müdaxilə etməmələri, dövlət sərhədlərinin demarkasiyası, münaqişə nəticəsində qapanmış nəqliyyat dəhlizlərinin açılması və s. məsələlərdir. Azərbaycan Ermənistandan Qarabağla bağlı tələblərin qapanmasını tələb edir, zira bura Azərbaycan ərazisidir, beynəlxalq birlik tərəfindən Azərbaycan ərazisi kimi tanınır və buna görə də burada da Azərbaycanın suverenliyi sözün tam mənasında bərqərar olmalıdır, bu problem Azərbaycan dövləti üçün bitib və Qarabağ ermənilərinin təhlükəsizliyinin, vətəndaş hüquqlarının tam təminatçısı da ancaq Azərbaycan dövləti ola bilər, problemin həlli məqsədi ilə münaqişə tərəfləri arasında ATƏT Minsk Qrupu kimi qurumun yenidən cəlb olunmasına isə nə ehtiyac var, nə də Ukraynada yaşanan hadisələrdən sonra Rusiya və Qərbin bu format çərçivəsində əməkdaşlığı hələlik mümkün sayılmır”.

E.Manafov onu da bildirdi ki, Ermənistan uzun illər ərzində ona havadarlıq edən bəlli dairələrin təzyiqləri, digər tərəfdən isə bu ölkədə iqtidar və müxalifətin bu məsələdə fərqli mövqe və baxışları ucbatından danışıqlarda ardıcıl mövqe sərgiləyə bilmir: ”Ermənistan hakimiyyəti siyasi iradə və qətiyyət nümayiş etdirmək iqtidarında deyil və ya bunu bacarmır, nəticə etibarı ilə onun sözü və əməlləri arasında kəskin mövqe fərqliliyi var, bu isə istər danışıqların gedişatına müsbət təsir göstərmir, istərsə də bölgədə 3+3 formatında gələcək əməkdaşlığın müqəddəratı ilə bağlı məsələləri sual altında qoyur. Ermənistanın özünün yenidən hərbi qarşıdurmaya gedəcəyi istisnadır, buna onun nə gücü, nə də imkanları var, ordunun bugünkü durumu, Ermənistan iqtisadiyyatının bərbad vəziyyəti və s bunu deməyə əsas verir, lakin Ermənistanın bölgədə qarşı duran güc mərkəzləri arasında manevr etmə istəyi göstərir ki, bölgədəki mövcud durum və yeni geosiyasi reallıqlar bəlli tərəfləri Ermənistandan ötürücü qayış rakursunda istifadə etməyə sürükləyə bilər, bu mənada Ermənistan bu günün özündə də bölgənin geoiqtisadi inkişafı ilə bağlı məsələlərdə əyləc mexanizmi qismində hələ də qalmaqdadır”.

***Gülyana***

# "Son zəng" çalındı...



**Azərbaycanda bütün ümumtəhsil müəssisələrində onbirillik məktəb həyatının "Son zəng"i çalındı. 2021/2022-ci dərs ilinə yekun vuruldu. 2021-2022-ci tədris ilində respublikanın ümumtəhsil məktəblərinin IX siniflərini 133 422 nəfər, XI siniflərini 91 188 nəfər şagird bitirir. IX sinfi bitirənlərdən 61 400 nəfəri qız, 72 022 nəfəri oğlan, XI sinfi bitirənlərdən 42 005 nəfəri qız, 49 183 nəfəri oğlandır. 2021-2022-ci tədris ilində respublika üzrə ümumtəhsil məktəbində fəaliyyət göstərən 5896 məktəbəhazırlıq qrupunu 100 529 nəfər uşaq başa vurub.**

On bir il parta arxasında oturub müəllimlərini həvəslə dinləyən, elmi biliklərə yiyələnən məktəblilər məzun adını qazandılar. Yaddaşlarda qalacaq bu günün zəngi uşaqlıq və yeniyetməlik dövrünün xatirəsi tək əbədiləşəcəkdir. Artıq bu gündən gənclər müstəqil Azərbaycanın müstəqil vətəndaşı kimi həyata qədəm qoyacaqlar. Artıq neçə ildir ki, ölkəmizdə ümumtəhsil məktəblərində hər il iyunun 14-də son zəng qeyd edilir. SSRİ dövründə və dövlət müstəqilliyinin bərpasından sonra 2005-ci ilə qədər mayın 25-i, 2005-ci ildən 2016-cı ilə qədər isə mayın 31-də qeyd olunmuşdur.

Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər gənclərimizin savadlı, rəqabətəqabil, həm də əsl vətəndaş kimi yetişməsində əvəzsiz rol oynayır. Müasir dövrdə ölkələrin inkişaf konsepsiyasını təhsil müəyyənləşdirir. Bu baxımdan, müasir təhsil sisteminin yeni çağırışlara cavab verməsi məqsədi ilə təhsilin normativ-hüquqi bazasının formalaşdırılması, maddi-texniki təminatı istiqamətində Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan sərəncamlar əsasında geniş tədbirlər həyata keçirilib. Ölkəmizdə son illərdə bir sıra dövlət proqramları uğurla icra olunub, təhsilin məzmunu yenilənib, təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi əhəmiyyətli dərəcədə genişlənib. Təkcə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərin dünyanın aparıcı ali təhsil müəssisələrində ölkəmiz üçün prioritet hesab olunan ixtisaslar üzrə təhsil alıblar. Təhsillərini yüksək akademik göstəricilərlə tamamlamış məzunların 60 faizi özəl, 40 faizi isə dövlət sektorunda fəaliyyət göstərir. Dövlət büdcəsindən təhsilə ayrılan xərclərin ildən-ilə artırılması da hökumətin bu sahənin keyfiyyətcə yeniləşməsi üçün ardıcıl və sistemli fəaliyyət göstərdiyini təsdiqləyir. Ayrılmış vəsaitlər "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"na və "2011-2021-ci illərdə Azərbaycan təhsilinin inkişafı üzrə Milli Strategiya"ya uyğun olaraq, təhsil sisteminin inkişafına yönəldilmiş dövlət proqramlarının və layihələrin həyata keçirilməsinə geniş maliyyə təminatı yaratmışdır. Təhsil sistemində islahatlar nəticəsində 15 yaşdan yuxarı əhali arasında savadlılıq səviyyəsi, ibtidai təhsilə nailolma, ibtidai təhsili başavurma səviyyəsi demək olar ki, yüz faizə çatdırılıb.

## İŞIQLI GƏLƏCƏYİMİZƏ HESABLANMIŞ LAYİHƏLƏR

Bu gün Azərbaycanın daxili imkanları genişləndikcə, təhsil ocaqlarının yenidən qurulması, təmiri və inşası istiqamətində də davamlı olaraq işlər görülür. Azərbaycanın təhsil sisteminin normativ-hüquqi bazasının yaradılması, təhsilin məzmununun yeniləşdirilməsi və təkmilləşdirilməsi, təhsilin idarə olunmasının demokratikləşdirilməsi, təhsil sahəsində beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində çox böyük işlər görülüb. Məhz bunun nəticəsidir ki, bu gün biz təhsilin keyfiyyətinin inkişaf etmiş ölkələrin səviyyəsinə yüksəldilməsi ilə bağlı qürur hissi keçiririk. Bütün bunlar Prezident İlham Əliyevin təhsilə, təhsil işçilərinə göstərdiyi yüksək diqqət və qayğısı, səmərəli fəaliyyət üçün yaratdığı əlverişli şərait və imkanlar sayəsində mümkün olub.

Son illərdə ölkədə təhsil müəssisələrinin inkişafı istiqamətində mühüm addımlar atılmış, müxtəlif şəhər və rayonlarda təhsil müəssisələrinin tikintisi, əsaslı təmiri və bərpası istiqamətində uğurlu işlər görülmüşdür. Məktəb tikintisi ilə bağlı qəbul olunmuş dövlət proqramları bu sahədə sürətli inkişafı təmin edib. Eyni zamanda, regionların sosial-iqtisadi inkişafı, yoxsulluğun azaldılması, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı qəbul olunan dövlət proqramlarında da məktəb tikintisinə xüsusi önəm verilir. Bakı və Abşeronun sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunan dövlət proqramlarında yeni məktəblərin tikintisinə diqqət yetirməklə yanaşı, mövcud məktəblərin əsaslı təmirinə də yer ayrılıb.

Azərbaycanda son illər təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, dövlət proqramları və islahatlar bu sahəyə dövlətin böyük önəm verdiyini göstərir. Təbii sərvətlərlə zəngin olan Azərbaycan, bu sərvətlərdən səmərəli istifadə etməklə, insan kapitalının yaradılması və daha da inkişaf etdirilməsini başlıca hədəf seçib. Buna görə də, neft gəlirləri Azərbaycanda, həm də təhsilin inkişafına yönəldilib.

## "TƏHSİL BİZİM GƏLƏCƏYİMİZDİR"

Ardıcıl olaraq, təhsil sahəsində köklü islahatların aparılması məktəblilərin burada şəxsiyyət kimi formalaşmasına təsirini göstərməkdədir. Müasir dövrümüzdə bu islahatların ən mühüm mərhələsi yaşanılır. Təhsilin məzmunu, keyfiyyəti və təlimin təşkilinə verilən tələblərdə ciddi yeniləşmə və müasirləşdirmə prosesləri davam edir. Yeni məktəb binalarının inşası və təhsilin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlər müəllimlərin iş, şagirdlərin isə təhsil almaq şəraitini yaxşılaşdırmaq baxımından, çox mühüm addımlardandır. Ölkəmizdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, deməyə əsas verir ki, Azərbaycanda bu sahədə görülən işlər uğurlu işıqlı gələcəyimizə hesablanıb.

Möhtərəm Prezidentimiz İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanı günügündən çiçəklənən ölkəyə çevirir. Hər bir gənc harada çalışmağından asılı olmayaraq, dövlətimizə, dövlətçiliyimizin qorunmasına və milli-mənəvi dəyərlərimizin yaşamasına xidmət edəcəklər. Təbii ki, bu, hər bir vətəndaşın borcu olmalıdır.

Təhsilin inkişafına göstərilən yüksək diqqət Azərbaycanın dünya miqyasında tanıdılmasına və layiqli yerinin təmin olunmasına xidmət edir. Təhsil sistemində əldə olunan yeniliklər Azərbaycan elminin dünyaya inteqrasiya sürətini artırıb. Təhsilin səviyyəsi keyfiyyət baxımından yeni mərhələsini yaşayır. Müasir gənclik ab-havanın içərisində məsuliyyət hissini ön plana çəkir. Azərbaycanın gələcək inkişafına doğru potensialını ortaya qoyur. İctimai-siyasi həyatda qlobal dəyişikliklərin aparılması gənclərin dünyaya inteqrasiya olunmasına gətirib çıxarır. Bu, dövlət tərəfindən Azərbaycan təhsilinə göstərilən diqqət nəticəsində reallaşır. Ölkəmizdə iqtisadi, mədəni və sosial sahələrdə aparılan islahatlar Azərbaycan təhsilinə təsirini göstərməkdədir. Yaşadığımız yüzillik "Təhsil və informasiya əsri" elan edildiyindən, ölkə başçısı tərəfindən təhsilə böyük önəm verilir. Yeni proqram və layihələr, təhsil islahatları həyata keçirilir. Prezident İlham Əliyevin vurğuladığı kimi, "Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir". Buna görə də, məsuliyyət hissi ilə cəmiyyətə layiqli vətəndaşlar yetişdirilir.

Bugünkü məzunlar Azərbaycanın demokratik bir dövlət kimi daha da inkişaf etdirilməsi üçün çalışmalı, bütün qüvvələrini ölkəmizin uğurlarına yeni uğurlar əlavə etməyə sərf etməlidirlər. Bu günün məzununu həyata hazırlayan güclü dövlətimiz, sağlam düşüncəli ziyalılarımız olduğundan mətin, iradəli və intellektual səviyyəli gənclərimiz müstəqil həyata vəsiqə alırlar. Artıq növbəti illərdə işğaldan azad olunan ərazilərdə tikilən məktəblərdə "Son zəng" çalınacaq.

Zəfər qazanmış Azərbaycanın MƏZUNLARI, yolunuz uğurlu olsun!

***Zümrüd BAYRAMOVA***

# "2024-cü ildə Naxçıvan Azərbaycanın enerji sisteminə qoşulacaq"



"Azərenerji" ASC 2023-2024-cü illərdə Naxçıvan elektrik şəbəkəsini Azərbaycanın ümumi enerji sisteminə qoşmağı planlaşdırır. SİA xəbər verir ki, bunu "Azərenerji" ASC-nin prezidenti Baba Rzayev deyib. Onun sözlərinə görə, qoşulma "Azərbaycan, Türkiyə və Avropa ölkələrarası enerji layihəsi" çərçivəsində baş tutacaq: "Yaşıl enerji" zonasının yaradılması və onun həm daxili istehlakımızı təmin etmək, həm də xaricə - Avropa ölkələrinə satmaq Prezident İlham Əliyevin qarşıya qoyduğu ən böyük prioritetlərdən biridir. Biz indi bunu başlamışıq. 3 mərhələdən ibarət layihədir. Layihənin adı "Azərbaycan, Türkiyə və Avropa ölkələrarası enerji layihəsi"dir.

Adından da göründüyü kimi nəhəng layihədir. Birinci mərhələ başlayıb və 2022-2023-cü illərdə bitməlidir. İkinci mərhələ 2023-2024-cü illərdə Naxçıvan elektrik şəbəkəsini Azərbaycan enerji sisteminə qoşmaqdır və üçüncü mərhələ hələ bu günə qədər Azərbaycanda olmayan çevirici yarımstansiyadır. İstəyirik ki, ən azı gücü 1000 MVT olan çevirici yarımstansiya tikilsin, İranla birləşmə və Türkiyə üzərindən də Avropaya enerji satışını təmin edək".

# 15 İyun - Milli Qurtuluş Günü

## Azərbaycan tarixinin şanlı qürur səhifəsidir



Bu gün Azərbaycan dünyada nüfuzlu dövlət kimi tanınır. 44 günlük Vətən müharibəsində qazanılan şanlı Zəfərdən sonra isə ölkəmiz böyük regional gücə çevrilib. Beynəlxalq birlik regionumuzda Azərbaycanın yaratdığı yeni reallıqları qəbul edir və dövlətimizlə hesablaşır. Bütün bu möhtəşəm nailiyyətlərin fonunda onu da unutmamalıyıq ki, müstəqil Azərbaycan dövləti hazırkı inkişaf mərhələsinə heç də asan yolla çatmayıb. Məlum olduğu kimi, 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra müxtəlif sosial-iqtisadi, siyasi problemlərlə üzləşən, vətəndaş müharibəsinin astanasında olan Azərbaycan hətta öz müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşmışdı. Ölkə daxilində müxtəlif silahlı qruplaşmaların hakimiyyət uğrunda savaşa çıxması həm siyasi böhrana səbəb olmuş, həm Azərbaycanı müxtəlif xarici kəşfiyyat orqanlarının mübarizə meydanına çevirmiş, həm də vətəndaşlarla siyasi rəhbərlik arasında kəskin konfrantasiyaların meydana çıxmasını şərtləndirmişdi. Məhz bütün bunların nəticəsi kimi, mövcud ictimai-siyasi xaos daha da dərinləşərək anarxiya həddinə çatmışdı.

Azərbaycanın həmin dövrdəki iqtidarının müstəqillik ideyalarına nə qədər etinasız yanaşmasının bariz nəticəsi idi ki, həmin vaxt hakimiyyətdə olanlar ölkəmizin müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində konkret olaraq heç bir strateji addım atmadılar. Daha sonra hakimiyyətə gəlmiş AXC-"Müsavat" cütlüyü Azərbaycanı, sözün əsl mənasında, xarici kəşfiyyat orqanlarının mübarizə meydanına çevirdi. Ölkədə tam anarxiya yarandı və daxili çəkişmələr özünün pik nöqtəsinə çatdı. Ermənistanın hərbi təcavüzü davam edir və xarici dövlətlər beynəlxalq münasibətlər sistemində Azərbaycanı müstəqil subyekt kimi qəbul etmirdilər. Belə olan halda, ölkədə separatizm meyilləri baş qaldırmağa başladı. Artıq ölkənin bir sıra ərazilərində qanunsuz silahlı birliklər bölücü iddialarla çıxış edərək mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər. Məhz 1993-cü ilin 4 iyun Gəncə hadisələri də belə bir şəraitdə baş verdi. Bu, hakimiyyət daxilindəki ayrılmalar və intriqalar artırmaqla bərabər, xaos və böhranın dərinləşməsinə səbəb oldu. Bu, eyni zamanda, ona dəlalət edirdi ki, Azərbaycan vətəndaş müharibəsi təhlükəsi ilə qarşı-qarşıya idi. 4 iyun hadisələri bir daha belə bir məqamı aşkar etdi ki, xalqın dəstəyinə söykənməyən, idarəetmə təcrübəsinə malik olmayan, eləcə də dərin daxili ziddiyyətlər məngənəsində olan hakimiyyət ölkənin müstəqilliyini qorumaq və suverenliyini təmin etmək iqtidarında ola bilməz. Xüsusilə də mürəkkəb proseslərin cərəyan etdiyi bir mərhələdə zəngin dövlətçilik təcrübəsinə malik olan siyasi lider yoxdursa, o zaman hər hansı bir uğurdan bəhs etmək olmaz. Məhz AXC-"Müsavat" hakimiyyətinin komandasında siyasi liderin olmaması həmin qüvvələrin fiaskosunu, eləcə də bütün bu dağıdıcı prosesləri şərtləndirən əsas amillərdən biri kimi çıxış etdi.



***Elbrus Quliyev***
***Dövlət Statistika Komitəsinin Birləşmiş Həmkarlar Komitəsinin sədri***

Beləliklə, Azərbaycan vətəndaş müharibəsi və parçalanmaq təhlükəsinin astanasında idi. Belə bir situasiyada xalqımız 1993-cü ildə parçalanmaq təhlükəsi ilə üzləşən Azərbaycan dövlətini xilas etmək üçün Ümummilli lider Heydər Əliyevə üz tutdu. O zaman ölkəyə "rəhbərlik" edən qüvvələr də Azərbaycanı məruz qoyduqları təhlükədən xilas etmək üçün ulu öndər Heydər Əliyevin Bakıya gəlməsini yeganə çıxış yolu kimi dəyərləndirirdilər. Beləliklə, iyunun 9-da Ulu öndər Heydər Əliyevin Naxçıvandan Bakıya gəlişi Azərbaycanın taleyi ilə bağlı narahatlıqlara son qoydu. Bu qayıdış xalqımızı fəlakətdən xilas etdi. Böyük xilaskarın Bakıya gəlməsi xəbəri xalq tərəfindən sevinclə qarşılandı. 1993-cü il iyunun 15-də isə Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi.

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olan 1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyevin Azərbaycan parlamentinə Sədr seçilməsi ölkəmizin siyasi tarixində keyfiyyətcə yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycanın mürəkkəb kataklizmlərlə müşayiət edilən daxili siyasi böhrandan qurtulması məhz bundan sonra mümkün oldu. Belə ki, Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsi əsasında atdığı praqmatik addımlar sayəsində ölkədə hökm sürən dağıdıcı proseslərin neytrallaşdırılmasına nail olundu. Ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan Milli Qurtuluş Günü Azərbaycan tarixinin şanlı qürur səhifəsinə çevrildi. Bir sözlə, Ümummilli lider Heydər Əliyev Azərbaycanı vətəndaş müharibəsindən - qarşıdurmadan, tənəzzül və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı və Azərbaycanı parçalamaq, forposta çevirmək və korporativ maraqlar əsasında idarə etmək istəyənlər öz niyyətlərinə çata bilmədilər. Bölücülərlə yanaşı, onlara havadarlıq edənlər Azərbaycanda ulu öndər Heydər Əliyevin yaratdığı milli birliyə məğlub oldular.

Əlbəttə, ölkəmizdə hökm sürən xaotik və anarxik meyillərin neytrallaşdırılmasında, mürəkkəb siyasi-hüquqi kataklizmlərin qarşısının alınmasında və ictimai-siyasi sabitliyin əldə edilməsində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin liderlik keyfiyyətləri birinci dərəcəli amil kimi xüsusi rol oynadı. Məhz o cür mürəkkəb situasiyanın fonunda milli-etnik və subyektlərarası barışmaz ziddiyyətləri aradan qaldırmaq, sosial inteqrasiyanı və onun davamlılığını təmin etmək, xalqla hakimiyyətin birliyini və milli ideoloji həmrəyliyi təmin etmək kimi zəruri strateji vəzifələri müvəffəqiyyətlə yerinə yetirən Heydər Əliyev Azərbaycan xalqının xilaskarı olmasını ölkəmizin müstəqilliyini qoruyub saxlamaqla və yeni inkişaf üfüqləri açmaqla sübut etdi. Məhz bütün bu hadisələrin təhlili bu qənaətə gəlməyə imkan verir ki, bu günədək əldə etdiyimiz nailiyyətlərin kökündə məhz Qurtuluş məfkurəsinin dayanması tarixi bir gerçəklikdir. Daha dəqiq desək, Qurtuluş məfkurəsi Azərbaycan dövləti və xalqını tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxaran iftixar mənbəyidir.

Beləliklə, bütün bunların qanunauyğunluğu kimi, 1993-cü il oktyabr ayının 3-də keçirilən prezident seçkilərinin nəticələrinə müvafiq olaraq xalqın yüksək etimadı ilə Azərbaycan Prezidenti seçilən Ümummilli lider Heydər Əliyev qısa bir zamanda ümummilli maraqlara xidmət edən və ali prinsiplərə söykənən fəaliyyəti ilə ölkədə milli həmrəyliyi, bütövlüyü və inkişafı təmin etdi. Bundan sonra ölkənin siyasi sistemində müsbət mənada əsaslı dəyişikliklər oldu. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, qarışıq seçki sistemi əsasında parlament seçkilərinin keçirilməsi, dövlətin hüquqi əsaslarının gücləndirilməsi, başqa sözlə, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaradıldı. Eyni zamanda, vətəndaş cəmiyyətinin qurulması prosesinə start verildi və fərdlərin siyasi həyatda müstəqil inkişafı üçün geniş şərait yaradıldı. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Bunlar isə öz növbəsində siyasi sosiallaşmaya və siyasi mədəniyyətin inkişafına, ümumilikdə, sosial-siyasi institutların səmərəli fəaliyyətinə yol açdı. Bir sözlə, Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan milli inkişaf strategiyasının fonunda həyata keçirilən sistematik işlər və görülən məqsədyönlü tədbirlər siyasi sistemin təşəkkül tapmasını, onun struktur elementlərinin mütəmadi surətdə təkmilləşməsini təmin etmiş oldu.

Öz fəaliyyətini Azərbaycanın hərtərəfli inkişafına həsr edən Ulu Öndər, eyni zamanda, dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində növbəti addımlarını atdı. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin, Ombudsman təsisatının və digər mühüm institutların yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi islahat xarakterli addımlar ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Şübhəsiz, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu dövlət quruculuğu siyasətinin fonunda əldə edilən nailiyyətlərin sayını istənilən qədər artırmaq olar. Amma təkcə sadalananlar da onu deməyə əsas verir ki, ulu öndər Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi.

Azərbaycanı tənəzzüldən xilas edərək dirçəliş yoluna çıxaran Ümummilli lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı tarixi xidmətlərindən biri də ölkəmizin beynəlxalq arenada müstəqil dövlət kimi tanınması, ikitərəfli və çoxtərəfli səmərəli xarici əlaqələrin qurulması və nəticə etibarilə milli maraqlarımıza müvafiq xarici siyasət strategiyasının əsasının qoyulmasıdır. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik və balanslaşdırılmış xarici siyasət kursu nəticəsində Azərbaycanın beynəlxalq əlaqələri genişlənməyə başladı, ölkəmizlə əməkdaşlıq etmək istəyənlərin sayı artdı. Həmin dövrdə həyata keçirilən rasional xarici siyasət kursunun mühüm istiqamətlərindən birini enerji resurslarından səmərəli istifadə olunması və bu kontekstdə Azərbaycanın etibarlı strateji tərəfdaşa çevrilməsi təşkil edirdi. İlk növbədə 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında dünyanın 8 ölkəsindən 11 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı. Bununla da Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının möhkəm təməli qoyuldu. Ulu öndər Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində imzalanmış "Əsrin müqaviləsi"ndən başlanan enerji siyasəti Azərbaycanın regional və qlobal miqyasda enerji təhlükəsizliyinin təminatına müstəsna töhfələr bəxş etməsini şərtləndirməklə yanaşı, ölkəmizin gücünü və nüfuzunu artıran faktor qismində çıxış etdi. Bundan sonra milli maraqlarımıza müvafiq enerji layihələri gerçəkləşdirildi və bütün bunlar Azərbaycanın etibarlı strateji tərəfdaş kimi ikitərəfli və çoxtərəfli xarici əlaqələrinin səmərəlilik səviyyəsini artırdı. Ölkəmiz miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli strateji layihələrin mərkəzi oyunçusu qismində çıxış etməyə başladı.

Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu balanslaşdırma siyasəti sayəsində Azərbaycan qısa zaman kəsiyində regionun güclü və nüfuzlu aktoruna çevrildi, eyni zamanda, qlobal miqyasda milli dövlətlərin etibarlı strateji tərəfdaşı kimi qəbul edildi. Bu isə milli maraqların təmin edilməsi üçün fundamental strateji faktor qismində çıxış etdi.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət strategiyasının mühüm prioritetlərindən birini də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll edilməsi təşkil edirdi. Məhz Ümummilli lider Heydər Əliyevin əhəmiyyətli səyləri və gərgin əməyi sayəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atılmağa başlandı, Azərbaycanın ərazi bütövlüyünün tanınması beynəlxalq təşkilatların sənədlərində təsbit olundu. 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad edərkən həmin sənədlər hüquqi baza rolunu oynadı.

Bu gün müstəqil Azərbaycan Ümummilli lider Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Təsadüfi deyil ki, 2003-cü ildə Azərbaycan xalqı Ümummilli liderin yolunu davam etdirməyi qarşısına məqsəd qoyan cənab İlham Əliyevi özünün Prezidenti kimi gördü və zaman göstərdi ki, xalq öz seçimində yanılmayıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük zəfərlərə imza atıb. 44 günlük müharibədə qazanılan qələbə isə bu zəfərlərin zirvəsində dayanır. Hazırda müstəqil dövlətimizin qarşısında müqəddəs vəzifələr dayanır: İlk növbədə, işğaldan azad edilmiş əraziləri bərpa etmək və insanları o doğma yurdlarına qaytarmaq. Bu yolda dövlətimiz qətiyyətli addımlar atır. Beləliklə, ölkəmizi qarşıda daha böyük nailiyyətlər gözləyir. Bu nailiyyətlərin əsasında isə QURTULUŞ MƏFKURƏSİ dayanır!

# 1993-CÜ İL 15 İYUN - İMZALAR İÇİNDƏ İMZAMIZI UCALARA QALDIRAN MİLLİ QURTULUŞDAN BÖYÜK ZƏFƏRƏ DOĞRU

Düz 29 il bundan öncə, tarixin bu günü xalqımızın Ümummilli Lideri Heydər Əliyev hakimiyyətə Qayıdışı ilə müstəqilliyimizi qoruyub saxladı və inkişaf etdirilməsinə nail oldu. Artıq ikinci ildir ki, bu tarixi Qurtuluş Gününü ərazi bütövlüyünü bərpa etmiş, qalib dövlət kimi qeyd edirik. Bu yerdə 15 iyun Milli Qurtuluş Günü ilə bağlı Milli Məclisin tarixi qərarından bir məqamı demək istərdim. 15 iyun - Qurtuluş Günü Azərbaycan Milli Məclisinin qərarı ilə 1997-ci ilin 27 iyununda rəsmiləşdirildi. Milli Məclisin həmin tarixi qərarında deyilir: "Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi".

## 15 İYUN - HƏR BİRİMİZ ÜÇÜN HƏM TARİXİ XİLASKARLIQ, HƏM DƏ MÖVCUD OLMA GÜNÜDÜR

Bəli, Milli Məclisin həmin tarixi qərarında deyildiyi kimi, Heydər Əliyev Azərbaycanı, Azərbaycan xalqını məhv olmaqdan qurtarmaq üçün "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" dedi. Bu çətin, ağır bir mərhələ Azərbaycanın bir dövlət kimi, azərbaycanlıların isə bir xalq kimi gələcək mövcudluğu məsələsinin həlli mərhələsi idi. 1991-ci ildən başlayaraq 1993-cü ilin iyun ayına qədər ölkədə hakimiyyətsizlik, başıpozuqluq, hərc-mərclik mövcud idi. Azərbaycanın müxtəlif bölgələrində xarici dövlətlərin marağı ilə təkan verilən separatçılıq əhvali-ruhiyyəsi güclənir, hakimiyyət iddiasında olan qruplaşmalar arasında silahlı toqquşmalar baş verir, Azərbaycan xalqı torpaqlarımız uğrunda Ermənistan silahlı birləşmələri ilə özünümüdafiə səviyyəsində döyüşürdü. Hər addımda ölkədə qanun pozuntusu və cinayət törədilməsi adi hal alır, iqtisadiyyat dağılır və talan edilir, elm, təhsil və mədəniyyət tamamilə diqqətdən kənarda qalırdı. Bir sözlə, Azərbaycan dağılmağa, bölünməyə və parçalanmağa aparan bir yolda olduqca sürətlə irəliləyirdi. 1993-cü ilin iyun ayında başlanan Gəncə hadisələri ölkəmizin vətəndaş qarşıdurması ərəfəsində olmasının aydın işarəsi idi. Məhz belə bir tarixi məqamda Azərbaycan xalqı seçimini etdi. Xalqımız özünün böyük oğlu, dünya şöhrətli siyasi xadim Heydər Əliyevi köməyə çağırdı və hakimiyyət sükanını Ona etibar etdi. Yaranmış xaos və özbaşınalıqdan başını itirmiş o vaxtkı iqtidar nümayəndələri də xalqın təkidli tələbləri qarşısında tab gətirməyərək Ulu Öndərimiz Heydər Əliyevin hakimiyyətə qayıdışını ondan dəfələrlə xahiş etdilər. Həyatının bütün işgüzar dövrünü Azərbaycan yolunda sərf etmiş böyük siyasi xadim Heydər Əliyev xalqın səsinə səs verdi, 1993-cü il iyun ayının 9-da Bakıya gəldi. Dahi Öndər Heydər Əliyevin həmin gün Bakıya dönüşü adi dönüş deyildi. Bu, bir xilaskarın gəlişi idi.

Ümummilli Lider gəlişinin məqsəd və məramını aydın olaraq belə ifadə etmişdi: "Mən Azərbaycanın müstəqilliyini Azərbaycan xalqı üçün böyük nailiyyət hesab etmişəm və bu müstəqilliyin əldə olunmasına xidmət etmişəm. Bundan sonra ömrümün qalan hissəsini də Azərbaycanın müstəqilliyinin möhkəmlənməsinə, inkişaf etməsinə sərf edəcəyəm".

1993-cü il iyun ayının 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilən ulu öndər Heydər Əliyev bu tarixi məqamda bütün Azərbaycan xalqını vətəndaş həmrəyliyinə dəvət etdi: "Mən rica edirəm, kiçik hissiyatı kənara qoymaq lazımdır, xırda dedi-qodunu kənara qoymaq lazımdır, bunların vaxtı deyil... Əgər kimsə, nə vaxtsa mənə qarşı düzgün münasibət bəsləməyibsə, nəsə edibsə, inanın ki, mən onların hamısını çoxdan bağışlamışam". Bu, adi müraciət deyildi, zəngin tarixi və dövlətçilik ənənələri olan, böyük sərkərdələr və dövlət xadimləri yetirmiş qədim



*Seyfəddin Əliyev,*
*YAP Masallı rayon təşkilatının sədri*

bir xalqın ona olan ümidlərini hiss edən bir liderin xalq etimadını doğrultmağın məsuliyyətini dərindən dərk etməsinin aydın ifadəsi idi. Bu, bir siyasətçinin, böyük vətənpərvərin Vətənin ən ağır günlərində milli birliyə, həmrəyliyə, ümumi düşmənlərə qarşı birgə mübarizəyə çağırışı idi. Bu, hər bir kəsə yalnız dövlətin və xalqın mənafeyinə xidmət etmək borcu barədə qəti xəbərdarlıq idi.

## YENİ AZƏRBAYCAN PARTİYASI - MÜSTƏQİLLİYİMİZİN BƏLƏDÇİSİ

Ulu öndərin ən böyük xidmətlərindən biri Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. 1992-ci il noyabrın 21-də təsis konfransı 550 nümayəndənin iştirakı ilə keçirilən YAP-ın sıralarında bu gün 800 mindən artıq üzvün birləşməsi Heydər Əliyev siyasətinə dəstəyin ifadəsidir. Yeni Azərbaycan Partiyasının əsas məqsədi, məramı Heydər Əliyev ideyalarını yaşatmaq, bu ideyalar əsasında Azərbaycanın inkişafının davamlılığını təmin etməkdir. Fəaliyyətə başladığı dövrdən bu günə qədər YAP tutduğu yola sadiq olmuş, daim Azərbaycanın daha da qüdrətlənməsinə, çiçəklənməsinə, əhalinin sosial rifah halının yaxşılaşmasına səy göstərmişdir. Söz və əməl birliyi YAP-ın cəmiyyətdə nüfuzunun artmasında stimulverici amildir. Partiyaya milyonların sevgisi, dəstəyi şəksizdir. 11 aprel prezident seçkiləri bunu bir daha təsdiqlədi. 2003-cü ildə qələbəsi ilə Heydər Əliyev siyasətinin uğurla davamına yol açan Prezident İlham Əliyev son 19 ildə gördüyü işlərə söykənərək 2008, 2013 və 2018-ci il prezident seçkilərində bir daha qələbə qazanmaqla Azərbaycanın davamlı inkişafını təmin edir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, Yeni Azərbaycan Partiyasının əsas ideoloji dayaqları müstəqillikdir, azərbaycançılıqdır, müasirlikdir, inkişafdır, sosial rifahdır, iqtisadi və siyasi islahatlardır. Keçirilən hər bir seçki prosesində hədəfini seçdiyi şüarla ifadə edən Yeni Azərbaycan Partiyası Azərbaycanın müstəqillik tarixinin bələdçisidir. Möhtərəm Prezidentimiz partiyanın yaranmasının 25 illiyi münasibətilə keçirilən tədbirdə "Bizim əldə edilmiş bütün uğurlarımızda Yeni Azərbaycan Partiyasının, onun üzvlərinin böyük əməyi, zəhməti, rolu var" söyləyərək bildirmişdir ki, bu gün partiyamız ölkəmizin aparıcı siyasi qüvvəsi kimi bu böyük məsuliyyəti hiss edir, onu öz üzərinə götürür. Partiyamızın üzvləri müxtəlif sahələrdə ölkəmizin ümumi inkişafına çox böyük töhfələr verirlər. Bu gün Yeni Azərbaycan Partiyası dünya miqyasında çox böyük və güclü partiyadır.

## 1993-CÜ İL 9 İYUN - BÖYÜK QAYIDIŞDAN MİLLİ QURTULUŞA

Və 1993-cü il 9 iyun tarixində böyük QAYIDIŞ baş tutdu. Qədirbilən xalqımız elə həmin gündən öz liderinin ətrafında sıx birləşmək qərarını verdi və müdrik şəxsiyyət 6 gün sonra, daha doğrusu, 15 iyun tarixində Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Tarixi QAYIDIŞ artıq MİLLİ QURTULUŞLA aydın sabah və parlaq gələcək naminə daha da möhtəşəmlik qazandı. Böyük Heydər Əliyev həmin ilin 24 iyun tarixindən isə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır. Artıq bütün dünya Azərbaycan dövlətinin rəhbərliyində Heydər Əliyev işığını, idarəçiliyini və Onun xalqla birliyindən doğan gücünü görür və hesablaşmağa məcbur olurdular. Xalqımız böyük Heydər Əliyevin müstəqil və demokratik Azərbaycan dövlətinin başçısı olaraq fəaliyyətini dəstəkləyir və bir an öncə prezident seçkilərinin keçirilməsini istəyirdilər. Buna görə də 1993-cü il oktyabr ayının 3-də keçirilən seçkilərdə ulu öndərimiz xalqımız tərəfindən Azərbaycan Respublikasının Pezidenti seçildi və bu gündən etibarən işıqlı günlərin, aydın sabahın və parlaq gələcəyin siyasi, hüquqi, iqtisadi və sosial əsasları qoyulmuş oldu. Böyük Heydər Əliyevin müdrik rəhbərliyi ilə prezident seçkilərindən cəmi yeddi ay sonra, yəni 1994-cü ilin 12 may tarixindən etibarən torpaqlarımızda başa alıb gedən müharibə atəşkəslə əvəz olundu. Bu isə sonrakı dövrlər üzrə etibarlı islahatların və sosial-iqtisadi inkişafın təmin olunması üçün əlverişli mühitin başlanğıcına çevrildi. Sonrakı proseslərin gedişi göstərir ki, böyük Heydər Əliyevin uzaqgörən rəhbərliyi nəticəsində milli iqtisadiyyat üzrə quruculuq prosesləri bir-biri ilə zəncirvari əlaqədə və asılılıqda olmaqla inkişaf etdi və bir-birini tamamlamaqla reallaşdı. Atəşkəsin əldə olunmasından keçən 4 ay ərzində bütün dünya ölkələri artıq Azərbaycanda sülhün, əmin-amanlığın və bunun əsasında da etibarlı tərəfdaşlıq mühitinin mövcudluğuna itməz və bitməz inamı və ən başlıcası, bütün bunların dayaq nöqtəsi olaraq böyük Heydər Əliyevin müdrik siyasətinin parlaqlığını gördülər.

## PREZİDENT İLHAM ƏLİYEV: "ONA ZAMAN DA QALİB GƏLƏ BİLMƏDİ"

"...Heydər Əliyev qalib idi. O, bütün döyüşlərdən qalib kimi çıxıb, heç kim ona qalib gələ bilməmişdir. Əslində, o, yeni güclə, yeni enerji ilə siyasi mübarizəyə qoşuldu, yenidən qələbə qazandı və tarixdə qalib kimi qaldı. Heç kim və heç nə ona qalib gələ bilmədi. Nə xarici düşmənlər, nə də Azərbaycanda özünü ona rəqib qismində təqdim etməyə çalışanlar, bəzi uğursuz siyasətçilər. Ona zaman da qalib gələ bilmədi!". Azərbaycan Prezidenti cənab İlham Əliyevin söylədiyi bu fikirlər zaman keçdikcə öz əhəmiyyətini saxlamaqdadır və saxlayacaqdır. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan dünyanın döyünən ürəyinə, mərkəzinə çevrilən bir ölkə kimi beynəlxalq aləmdə də öz qətiyyətli sözünü deməkdədir. Bir çox mötəbər beynəlxalq konfranslara, böyük miqyaslı tədbirlərə ev sahibliyi etmiş Azərbaycanın bu uğurları, məhz Ulu Öndər Heydər Əliyev yolu və bu yolun davamçısı, Qalib Lider, Azərbaycan Prezidenti İlham Əliyev cənablarıdır.

## 15 İYUN TƏKCƏ DÖVLƏTÇİLİYİMİZİN XİLASI DEYİLDİ, HƏM DƏ 44 GÜNLÜK MÜHARİBƏDƏ MÖHTƏŞƏM QƏLƏBƏNİN TƏMƏLİ İDİ

Bəli, Ulu Öndər Heydər Əliyev 15 iyunda Azərbaycana ikinci dəfə siyasi hakimiyyətə qayıdışı ilə, ilk növbədə, ölkədə sabitliyi təmin etdi, dövlətçiliyimizi parçalanmaq və məhv olmaq təhlükəsindən, iqtisadi tənəzzüldən, beynəlxalq təcriddən xilas etdi. 15 İyun təkcə dövlətçiliyimizin xilası deyildi, həm də 44 günlük müharibədə möhtəşəm qələbənin təməli idi. Və bu gün 19 il prezidentlik fəaliyyəti dövründə ulu öndər Heydər Əliyev siyasətinin layiqli davamçısı Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyev qəhrəman Milli Ordumuzun və qədirbilən xalqımızın sayəsində 44 günlük Vətən savaşından tarixi zəfərlə çıxdı.

Bəli, 19 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyev: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm",-vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev: "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Dahi Öndər Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm",-deyərək son 19 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz Qarabağ Azərbaycandır!ımıza, haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi və ərazi bütövlüyümüzə və nəhayət, Qələbə Zəfərimizə nail olduq!

Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin martın 5-də keçirilən qurultaydakı geniş nitqi çox zəngin və keçilmiş yola verilən qiymətlə, dərin təhlillə səciyyəvi oldu. Dövlət başçısı yüksək intellektual səviyyəsi ilə seçilən proqram xarakterli çıxışı zamanı ölkəmizin son illərdə keçdiyi tarixi yola bir daha nəzər saldı. Bildirdi ki, Azərbaycan bu gün bölgənin və regionun ən qüdrətli ölkələrindən birinə çevrilib: "Mən son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki, heç vaxt Azərbaycan xalqı bu işğalla barışmayacaq. Heç vaxt Azərbaycan imkan verməyəcək ki, tarixi, əzəli torpaqlarında ikinci erməni dövləti yaradılsın. Heç vaxt bizi tam qane etməyən razılaşma ilə barışmayacağıq və müharibədən əvvəl müxtəlif çıxışlarda, müsahibələrdə deyirdim ki, bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Biz ərazi bütövlüyümüzü tam bərpa etməliyik. Biz tarixi ədaləti tam bərpa etməliyik. Çünki yarımçıq razılaşma bizim xalqımızın maraqlarına cavab vermirdi, tarixi ədalətə cavab vermirdi. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi. Biz bu mütləq qələbəni qazandıq, düşməni darmadağın etdik, düşmən ordusunu məhv etdik və istədiyimizə nail olduq"."Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur" deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev "Şuşasız işimiz yarımçıq qalar" deyərək reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!". Bəli, bu gün də Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi yol davam etdirilir. Azərbaycan inkişaf edir, ən uca zirvələrə qalxır, beynəlxalq aləmdə öz nüfuzunu daha da gücləndirir. Azərbaycan getdikcə qüdrətli və dayanıqlı ölkəyə çevrilməklə dünya miqyasında öz mövqeyini və yerini möhkəmləndirir. Və əməli fəaliyyəti, xalqına və Vətəninə məhəbbəti ilə ümumxalq sevgisi qazanan Prezident İlham Əliyev son 19 illik prezidentlik fəaliyyəti müddətində Ulu Öndər tərəfindən qarşıya qoyulmuş vəzifələrin öhdəsindən layiqincə gəlir və uğurlara aparır. Və bu gün xalqımız əmindir ki, müstəqil Azərbaycan Heydər Əliyev ideyaları işığında Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələr fəth edəcək, Qalib Liderimiz Prezident İlham Əliyevin rəhbərliyi ilə Böyük Qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilməklə, düşmənin yerlə-yeksan etdiyi Qarabağ dünyanın ən gözəl guşələrindən birinə çevriləcək. Və bu uğurların əsasını qoymuş Ulu Öndər Heydər Əliyevin adı isə qədirbilən Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.

# Yeni "Halqa" əməliyyatı keçirilsə...

*Təkcə Laçın dəhlizinin bağlanmasından sonra proseslərin necə sürətlə və səmərəmizə dəyişəcəyini isə yenidən izah etməyə ehtiyac yoxdur*

**Keçmiş Şaumyan və Qasım İsmayılov, indiki Goranboy rayonu ərazisində silahlı separatçılara qarşı uğurlu əməliyyatı keçirilməsinin və onlarla silahlı quldurun məhv edilmələrinin üzərindən 30 il keçir və məsələ yalnız həmin əməliyyatın uğurla başa çatdırılmasında deyil, məsələ bu gün də Qarabağda qalan və Rusiya sülhməramlılarının müvəqqəti nəzarətləri altında hay-şivən salan separatçıların Azərbaycan torpaqlarına iddialarında, üstəlik, sərsəm bəyanatlar yaymalarındadır!**



### Separatçıların ayaqları yer almağa başlayır -Rusiya sülhməramlılarının gözləri önündə!

2020-ci ilin 10 noyabrında Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri arasında imzalanan üçtərəfli bəyanata rəğmən, orada qeyd edilən bəndlərin bir çoxu hələ də yerinə yetirilməmiş qalmaqdadır.

Ancaq daha bir fakt ondan ibarətdir ki, bu günün özündə də Ermənistan rəhbərliyi qanunsuz olaraq Qarabağa maliyyələr ayırır, eyni zamanda, Xankəndi də daxil olmaqla RSK-nın nəzarəti altındakı ərazilərdə yeni binalar, evlər inşa edilir, infrastrukturlar qurulur, eləcə də hərbi məqsədli səngərlər qazılır, istehkamlar tikilir, hərbi hissələr, silah-sursat bazaları isə qalmaqda davam edir və bütün bunlar bilavasitə (!) separatçıların, onların Ermənistandakı havadarlarının cəhdləri hesabına baş verir və ən əsası - RSK (daha dəqiq desək Rusiya) üzərinə götürdüyü missiyasını doğru-dürüst yerinə yetirmir.











Belə olan halda isə separatçıların ayaqları necə deyərlər, yer almağa başlayır. Bəs növbəti addım necə atılmalıdır, nə edilməlidir ki, bu məsələyə birdəfəlik son qoyulsun?

### Azərbaycan xalqı belə quldurlarla çiyin-çiyinə yaşaya bilməz və əlbəttə ki, bunu da istəmir də!

Məhz bu yazını da Goranboyda 30 il əvvəl erməni separatçılarına qarşı keçirilmiş uğurlu əməliyyatla bağlı əlaqələndirmədim. Məsələ ondadır ki, həmin əməliyyatın otuzuncu ildönümü ilə bağlı Xankəndidəki separatçılar öz təbirlərincə "bəyanat" yayıblar və nəinki işğaldan azad etdiyimiz ərazilərimizə, eləcə də digər ərazilərimizə qarşı da iddialarla çıxış ediblər.

Bu baxımdan, separatçıların "bəyanatlarını" hərəkətə keçmək siqnalı ilə də əlaqələndirmək olar. Xatırlayırsınızsa, uğurlu Fərrux əməliyyatında Azərbaycan Ordusu mövqelərini müəyyənləşdirdi və görünür, növbəti belə bir qətiyyətli addımın atılmasının vaxtı çatıb. Çünki bu uşaq qatilləri və quldur yığnağı heç vaxt, heç nəyə öyrənmirlər və mütləq (!) mənada başları əzilməlidir. O cümlədən, Azərbaycan xalqı belə quldurlarla çiyin-çiyinə yaşaya bilməz və əlbəttə ki, bunu da istəmir də!

### Artıq bu terrorçularla birdəfəlik işi bitirməyin zamanıdır!

Biz bu ikiayaqlı çaqqalların "Paşinyan olmasa idi Azərbaycan Silahlı Qüvvələri Ağdamı, Kəlbəcəri, Laçını geri qaytara bilməzdilər" fikirlərindən də nəticə hasil etməliyik. Görünür, bu tör-töküntülər "məğlubedilməz erməni ruhu" nağıllarına o qədər aludə olublar ki, hələ də bu yuxularından ayıla bilmirlər. Buna görə də azad edilmiş Şuşa şəhərinin hələ də "döyüşsüz təhvil verildiyini" ulayırlar (?!)

Və artıq bu terrorçularla birdəfəlik işi bitirməyin zamanıdır. Azərbaycanın suveren ərazilərində separatçılar olmamalıdır! RSK isə qoy özünün müvəqqəti kazarmalarında otursun və artıq birmənalı tələbata çevrilən antiterror əməliyyatlarının keçirilməsinə, ərazilərimizin separatçılardan, quldurlardan təmizlənməsinə mane olmasın, Azərbaycan əsgərinin əl-ayağına da dolaşmasın. Və yekunda - artıq Laçın dəhlizinin bağlanmasının, quldurlar şaykasının isə haqq elədikləri cəzalardan yayınmamaları üçün ələ keçirilmələrinin zamanıdır.

Vaxtilə Xocalı qatillərindən olan Arkadi Ter-Tadevosyan qaçmağı bacarmışdı və Qarabağın azad edilməsini gözləri ilə gördükdən sonra təəssüf ki, təbii yolla gəbərdi. Ancaq yerdə qalanlara da bu fürsəti verməmək olmaz. Təkcə Laçın dəhlizinin bağlanmasından sonra proseslərin necə sürətlə və səmərəmizə dəyişəcəyini isə yenidən izah etməyə ehtiyac yoxdur...

***Rövşən RƏSULOV***

***P.S. Hətta yeni "Halqa" əməliyyatının keçirilməsi də, əslində, uğurlu və əlverişli ideya olardı...***



# Dövlətçilik tariximizə qızıl hərflərlə yazılmış gün

**Azadlıq həm ayrıca bir vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir. Qüdrətli və möhkəm dövlət olmadan azadlıq və müstəqillik də yoxdur. Ona görə də, dövlətçilik hər şeydən öndə gəlir.**

Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun günü onu qiymətləndirənlər, dərindən dərk edənlər üçün çox qiymətlidir. Vətənini, xalqını sevən həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixi, Azərbaycanda ölüm-dirim mübarizəsinin tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqa arxa olan bir insandır- Heydər Əliyev.

Heydər Əliyevin Naxçıvan MR Ali Sovetinin sədri olduğu vaxt müstəqil, tarazlı və cəsarətli siyasət yeritməsi bütün Azərbaycan xalqının diqqətini cəlb edir, ona ümidləri artırırdı. İqtidar isə onun siyasətini separatçılıq kimi qiymətləndirir və Muxtar Respublikada hakimiyyət çevrilişi etməyə, qeyri-demokratik yolla Xalq Cəbhəsini hakimiyyətə gətirməyə cəhd edirdi. Bu elə bir dövr idi ki, daşnaklarin "Böyük Ermənistan" yaratmaq niyyətləri, Azərbaycanı Qafqazın siyasi xəritəsindən silmək planları reallaşmaq üzrə idi. Azərbaycan torpağı etnik əlamətə görə parçalanıb yox olmaq təhlükəsi qarşısında qalmışdı.

1992-ci il oktyabrın 24-də Xalq Cəbhəsinə tabe olan silahlı dəstələr Naxçıvanda Daxili İşlər Nazirliyi binasını, televiziya studiyasını ələ keçirdi. Qiyamçılar xalqa televiziya ilə müraciət edib mövcud hakimiyyət əleyhinə bəyanatlar verdilər. Lakin əhalinin böyük əksəriyyəti Heydər Əliyevin çağırışı ilə ayağa qalxdı. Silahlılar dövlət idarələrindən qovulub çıxarıldı.

Xalq xilas yolunu Heydər Əliyevin ölkəyə rəhbərliyində gördüyü halda iqtidarda olan və olmayan Xalq Cəbhəsi üzvləri, habelə hakimiyyəti itirmiş qüvvələr və onların əlaltıları arasında didişmə, satqınlıq, xəyanət yolu ilə hətta Azərbaycanın müstəqilliyi bahasına hakimiyyəti ələ keçirmək cəhdləri baş alıb gedirdi.

Gəncədə 1993-cü il iyun qiyamı vəziyyəti daha da ağırlaşdırdı. Burada hökumətə tabe olmayan bir qrup zabit "hərbi birlik" yaratmışdı. Onlara Surət Hüseynov rəhbərlik edirdi. 709 saylı hərbi hissə Müdafiə Nazirliyinə tabe olmurdu. İqtidar hərbi müxalifətin öhdəsindən gələ bilmirdi.

İyunun 4-də səhər hərbi qiyamı yatırmaq üçün hökümət Gəncəyə 3 minədək canlı qüvvə, güclü hərbi texnika yeritdi. Qiyamçılarla Prezident Qvardiyasının əsgərləri üz-üzə dayandı. 709 saylı hərbi hissənin kazarmaları dağıdıldı, hərbi təyyarələr havaya qalxıb hava limanını darmadağın etdi. Lakin qiyamçılar daha fəal hərəkət etdilər. Onlar qan tökmək istəməyən qvardiyaçıları şəhərdən çıxarmaq adı altında avtobusa doldurub güllələdilər. Hökumət qüvvələri məğlub edildi. Qiyamçı hərbi hissələr Bakıya doğru yeriməyə, prezidentin və hökumətin istefaya getməsini tələb etməyə başladılar və müqavimətə rast gəlmədən paytaxta yaxınlaşdılar.

İyunun 14-də Nəvahi yaxınlığında ordular üz-üzə dayandı. Danışıqlar nəticəsində qiyamçıları Lökbatan yaxınlığında və Şamaxı yolunun 75 kilometrliyində saxlamaq mümkün oldu. Yaranmış vəziyyətlə əlaqədar parlamentin sədri, baş nazir, üç güc nazirliyinin rəhbərləri istefaya getməyə məcbur oldular. Ölkənin qabaqcıl adamları, ziyalılar, sadə əməkçilər böyük fəlakətin yaxınlaşdığını hiss edirdilər.

Bununla yanaşı xalqın sağlam qüvvələrinə arxalanan qurtuluş hərəkatı meydana gəlir və sürətlə genişlənirdi. Bu hərəkat zamanın böyük siyasətçisi Heydər Əliyevin ətrafında toplaşırdı. Ziyalı insanlar dəfələrlə Naxçıvana gedib yenidən böyük siyasətə qayıtmasını xahiş etmişdilər.

1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər nüfuzlu ziyalısı-alimlər, müəllimlər, jurnalistlər, hüquqşünaslar, həkimlər "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə Qurtuluş hərəkatına rəhbərlik etməsi barədə rəsmi müraciət etdi. Ümummilli lider elə həmin qəzetdə bu müraciətə cavab verdi və ölkənin inkişafı, xaosdan qurtuluşu üçün öz fikirlərini çatdırdı. Yeni Azərbaycan uğrunda siyasi hərəkat genişlənirdi.

Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası (YAP) təşkil edildi. AXC-Musavat iqtidarı uzun müddət öz yarıtmaz fəaliyyəti ilə ölkəni parçalanmaq həddinə çatdırdı. Vətəndaş müharibəsi üçün zəmin yarandı. Başlanmış bu təhlükəli proseslərin qarşısını ala bilmədiyini dərk edən iqtidar son anda kömək üçün Heydər Əliyevə müraciət etdi.

Azərbaycanın görkəmli oğlu, böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Bütün Azərbaycan xalqı bu gəlişi böyük ümid və sevinclə qarşıladı.

Bununla da daxili və xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Xilaskarlıq missiyasını öz üzərinə götürən bu nəhəng şəxsiyyət həyatını təhlükə altında qoyaraq Gəncəyə getdi. Hadisələrin daha faciəli nəticələrə gətirib çıxarmaması üçün öz ağsaqqal sözünü dedi. İndi inamla söyləyə bilərik ki, Heydər Əliyevin Gəncəyə səfəri vətəndaş müharibəsinin qarşısını aldı.

Ümummilli liderimiz Gəncədə baş verən hadisələrə münasibət bildirərkən demişdi: "Hadisələr dəhşətlidir. Qan tökülüb, cinayət edilib. Bunlar araşdırılmalıdır və qanunu pozmuş bütün adamlar, cinayətdə iştirak etmiş adamlar, cinayəti təşkil etmiş, hansı tərəfdən asılı olmasına baxmayaraq qanun qarşısında məsuliyyət daşımalıdırlar".

1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Xalqın tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi.

Heydər Əliyev parlamentin sədri seçiləndən sonra ilk növbədə vətəndaş qarşıdurmasının qarşısını almağa, respublikada sabitlik yaratmağa, iqtisadi sferada stabilliyi təmin etməyə, cəbhədə real vəziyyəti qiymətləndirib, dövlətin hərbi qüvvələrini və müstəqil özünümudafiə dəstələrini birləşdirib vahid mütəşəkkil ordu yaratmağa başladı.

Sonrası məlumdur. Azərbaycanda stabillik yarandı, social-iqtisadi islahatlar keçirildi, ateşkesdən sonra ordunun möhkəmləndirilməsinə başlandı. "Əsrin Müqaviləsi"nin imzalanması ilə ölkəmiz beynəlxalq siyasi və iqtiadi dəstək aldı. Bunların nəticələri bu gün aydın müşahidə olunur.




Dövlətçilik xalqın "ölüm, ya olum" məsələsidir. Əsas məsələ dövləti kağız üzərində elan etmək deyil, onu reallıqda qoruyub saxlamaq, gücləndirmək, inkişaf etdirmək və dünyada söz sahibi etməkdir.

Heydər Əliyevin xalqımızın və tariximizin qarşısında ən böyük xidmətləri kəskin geosiyasi ziddiyyətlərin mövcud olduğu bir şəraitdə Azərbaycan dövlətçiliyini xilas etməsində, Azərbaycan varlığını parçalanıb yox olmaq təhlükəsindən qurtarmasında idi. Dövlətimizin qorunub saxlanılması isə azadlığımızın, müstəqilliyimizin qorunub saxlanması deməkdir, milli qurtuluş deməkdir!

Ümummilli liderin qətiyyəti xalqa ruh yüksəkliyi gətirdi, inamımızı özümüzə qaytardı, sabitlik və əmin-amanlıq yaratdı. Ümummilli liderimizin Azərbaycana rəhbərlik etdiyi dövrdə milli-mənəvi dəyərlərimiz bərpa edilmiş, onun qətiyyəti, apardığı uğurlu daxili və xarici siyasət sayəsində ölkəmiz xaosdan xilas olmuş, sivil demokratik inkişaf yolu ilə inamla irəliləyərək böyük nailiyyətlər qazanmışdır. Heydər Əliyev öz gücünə, təcrübəsinə güvənən dahi siyasətçi kimi dəfələrlə söylədiyi məşhur kəlamına sadiq qaldığını sübut etdi ki, "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir".

Sonrakı dövrlərdə də Azərbaycan dövlətçiliyi ona qarşı yönəlmiş qəsdlərdən uğurla çıxdı. Bu siyasi kursun laiqli davamçısı Prezident İlham Əliyev ölkəmizi daha da möhkəmləndirdi, inkişaf etdirdi və dünyada tanınan nüfuzlu dövlətlərdən birinə çevirdi. Bütün bunların bünövrəsi isə o gün qoyulmuşdu- 1993-cü ilin 15 iyununda. Bu səbəbdən tariximizə qızıl hərflərlə yazılmış 15 iyun günü Azərbaycanın dövlətçiliyinin ən mühüm tarixlərindən biridir.

Bayramınız mübarək!

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği: dövlət müstəqilliyimizin bərpasının 30-cu ili- Azərbaycan dövlətçiliyi müasir mərhələdə" istiqaməti çərçivəsində hazırlanıb.*

# "Yuventus" Poqbanın "işini bitirdi"



Mançester Yunayted"dən ayrılan Pol Poqba "Yuventus"a keçməyə bir addım da yaxınlaşıb. Qol.az xəbər verir ki, bu barədə goal.com məlumat yayıb. Turin klubu 29 yaşlı yarımmüdafiəçinin geri qaytarılması üzərində işləri yekunlaşdırıb. "Yuventus" futbolçu ilə yaxında müqavilə imzalanacağına əmindir və hər hansı bir sürpriz gözləmir.

Eyni zamanda keçidin iyul ayına yaxın elan olunacağı qeyd olunub. Poqba "Yuventus"da 10 nömrəli formanı geyinəcək. Qeyd edək ki, Poqba geridə qalan mövsüm Premyer Liqada 20 oyunda 1 qol vurub və 9 qolun ötürməsini verib.

# "Məhz bu səbəbdən kişilər öz həyat yoldaşını döyür"

"İnsan öz çəkisini vurmalıdır 30 ml qrama və alınan rəqəm qədər maye qəbul etməlidir. Misal olaraq bir insan 70 kq çəkisindədirsə, həmin insan gündəlik olaraq 2 litr həcmində maye qəbul etməsi daha məqbuldur". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirib.

Onun sözlərinə görə, birmənalı şəkildə istər yay, istərsə də qış aylarında çox soyuq su içmək olmaz: "Çünki bu hal ciddi və sağalmaz xəstəliklərə gətirib, çıxara bilər. Ümumilikdə hər bir mayeni normal otaq temperaturunda içmək tövsiyə edilir. İsti aylarda çay içərkən həmin çayın insana pis təsir etməsi onun hansı növə aid olmasından asılıdır. Əlbəttə, yeməkdən sonra çayı içmək olmaz, ən azından yeməkdən 1 saat sonra çay qəbul edilməlidir. Çünki çayın tərkibində olan maddələr qidada olan dəmirin qana sorulmasında maneçilik törədir. Azərbaycan ailəsində səhv bir fikir var ki, yeməkdən sonra mütləq şay içilməlidir. Hətta bunun üstündə öz həyat yoldaşını döyən kişilər də var. Təbii ki, bu, yolverilməzdir, yeməkdən sonra çay içmək, eyni zamanda da, qadına əl qaldırmaq".



*Banuçiçək Hüseynli*

## Kəklikotu çayı erkən yaşlanmanın qarşısını alır?

***Kəklikotu çayı soyuqdəymə, bronxit və öskürək kimi xəstəlikləri aradan qaldırır, selikli qişaları qurudur və öskürəkdən xilas olmaq üçün bronxial keçid spazmını sakitləşdirir. Eyni zamanda, infeksiyalara qarşı mübarizə aparan antiseptik xüsusiyyətlərə malikdir. Boğaz ağrısını və öskürəyi sakitləşdirir. Kəklikotunun tərkibi efir yağları, minerallar, faydalı fenollar və flavonoidlərlə zəngindir. Kəklikotu xora, iltihab problemlərindən əziyyət çəkənlər üçün də olduqca faydalıdır.***

Belə ki, kəklikotu ayaqlarda baş verən revmatik ağrılar zamanı əzələlərin yığılmasının qarşısını alır və ağrıları yüngülləşdirir. Kəklikotunun antiviral təsiri səbəbindən qripin tez və yüngül keçməsinə kömək edir. Yüksək hərarət, öskürək, boğaz ağrısı, iştahasızlıq, əzələ və sümüklərdə ağrılar qripin ən əhəmiyyətli əlamətləridir. Gün ərzində 3 dəfə kəklikotu çayı içməklə bu halların qarşısını almaq mümkündür.

Kəklikotunun tərkibində olan karvakrol xərçəng xəstəliyindən qoruma xüsusiyyətinə malikdir və bu da bitkini potensial xərçənglə mübarizə aparan qida maddəsi edir. 2015-ci ildə "Anti-Cancer Drugs" jurnalında dərc edilən bir araşdırma göstərdi ki, karvakrol xərçəng hüceyrə xəttinin yayılmasına və hərəkətinə maneə törədir.

Kəklikotu çayı tərkibindəki antioksidant və yüksək miqdarda flavonoidlər səbəbindən sağlam hüceyrə funksiyasını qoruyur, hüceyrələrdə və orqanlarda erkən yaşlanma əlamətlərinin qarşısını alır. Tədqiqatlar kəklikotunun yüksək təzyiq probleminə də yaxşı təsir etdiyini göstərib.



## 4 gün iş olmayacaq - TARİXLƏR AÇIQLANDI

Azərbaycanda gələn ayın qeyri-iş günləri açıqlandı. 9, 10 iyul tarixlərində Qurban bayramı qeyd olunacaq.

Gələn ayın 9-u və 10-u şənbə və bazar günlərinə təsadüf edir. Əmək Məcəlləsinə əsasən, iş və istirahət günlərinin yeri dəyişdiriləcək, 11 və 12 iyul tarixləri qeyri-iş günü olacaq. Beləliklə, 9, 10, 11, 12 iyul 2022-ci il tarixləri qeyri-iş günü olacaq.

## Avtobusda qadının çantasından 3200 manat pul oğurlayan şəxs tutulub

**Abşeron Rayon Polis İdarəsinə Xırdalan şəhəri ərazisində marşrut avtobusunda şəhər sakini S.Cəbiyevanın çantasından 3200 manat məbləğində pulunun oğurlanması barədə müraciət daxil olub.**

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluğu törətməkdə şübhəli bilinən Lənkəran rayon sakini, əvvəllər məhkum olunmuş Ruslan Məmmədov müəyyənləşdirilərək saxlanılıb. Şəxsi axtarış zamanı ondan metamfetamin də aşkarlanaraq götürülüb. Faktla bağlı rayon polis şöbəsi tərəfindən araşdırma aparılır.



## Sumqayıtda və Lənkəranda 2 piyadanı maşın vurub öldürdü

Sumqayıtda və Lənkəranda avtomobil piyadaları vuraraq öldürüb. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, iyunun 11-də saat 22 radələrində Sumqayıt şəhəri 12-ci mikrorayon ərazisində S.Məmmədov idarə etdiyi "Priora" markalı avtomobillə yolu keçən şəhər sakini Qorxmaz Qurbanovu vurub və nəticədə piyada hadisə yerində ölüb.

Bundan başqa, həmin gün saat 13 radələrində Lənkəran rayonunun Vilvan kəndində şəhər sakini İ.Hüseynov idarə etdiyi "Nissan" markalı avtomobillə yolu keçən kənd sakini Sənan Hüseynovu vurub. Xəsarətlə xəstəxanaya yerləşdirilən piyada iyunun 12-də orada ölüb. Hər iki faktla bağlı araşdırma aparılır.



**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**